**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ ƏMƏK EHTİYATLARINDAN SƏMƏRƏLİ İSTİFADƏNİN TƏMİN EDİLMƏSİ MƏSƏLƏLƏRİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Əhmədova Sevinc Vilayət**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos.Əhmədov Fariz Saleh oğlu**

**__________________________ imza**

**"____" ________________ 20__-ci il**

# "İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ ƏMƏK EHTİYATLARINDAN SƏMƏRƏLİ İSTİFADƏNİN TƏMİN EDİLMƏSİ MƏSƏLƏLƏRİ"

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060404 – İqtisadiyyat

**İxtisaslaşma:** Əməyin iqtisadiyyatı

**Qrup:** 96

**Magistrant:**
**Əhmədova Sevinc Vilayət**

**______________________ imza**

**Elmi rəhbər:**
**i.ü.f.d., dos. Hüseynov Rəşad Aktiv oğlu**

**____________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Hümbətova Suqra İnqilab qızı**

**_________________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**

**____________________ imza**

**BAKI – 2022**

## Elm andı

Mən, Əhmədova Sevinc Vilayət qızı and içirəm ki, “İşğaldan azad olunmuş ərazilərdə əmək ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi məsələləri” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ ƏMƏK EHTİYATLARINDAN SƏMƏRƏLİ İSTİFADƏNİN TƏMİN EDİLMƏSİ MƏSƏLƏLƏRİ

## XÜLASƏ


**Tədqiqatın aktuallığı: Ölkədə bazar iqtisadiyyatına keçid əmək ehtiyatlarının təkrar istehsalı və məşğulluğunda mühüm dəyişikliklərə səbəb olmuşdur. Bazar iqtisadiyyatına keçid əməkl bazarının meydana gəlməsinə səbəb olmuş, ölkədə yaranmış məşğulluq və işsizlik problemlərinin həllini ön plana çəkmişdir. Bu problemlərin həlli və əhalinin sosial rifahının yaxşılaşdırılması məqsədi ilə uzunmüddətli dövlət proqramlarının işlənib hazırlanması baxımından əmək bazarında baş verən proseslərin statistik qiymtələnlidirilməsini tələbb edir.**

**Tədqiqatın məqsədi: Əmək ehtiyatlarının iqtisadi məzmununun nəzəri və metodoloji əsaslarını araşdırmaq, struktur dəyişikliklərinin qanunauyğunluqlarını müəyyən etmək və onlardan səmərəli istifadə edilməsi yollarını təklif etməkdir. Həmçinin əmək ehtiyatlarından səmərəli istifadənin təkmilləşdirilməsinə dair təkliflərdə mövcuddur. Əmək ehtiyatlarının təkrar istehsalının təhlili və onlardan səmərəli istifadənin qiymətləndirilməsinə metodiki yanaşmaları müəyyən etmək, əmək ehtiyatlarının təkrar istehsalının xüsusiyyətlərini və şərtlərini müəyyən etmək və analitik əsaslandırmaq, əmək ehtiyatlarının təkrar istehsalının yaxşılaşdırılması üzrə təkliflər hazırlamaq və əsaslandırmaq, işğaldan azad olunmuş ərazilərdə əmək ehtiyatlarından istifadənin səmərəliliyinin artırılması mexanizmlərini təklif etmək və elmi cəhətdən əsaslandırmaq.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqat işində qarşıya qoyulan məsələlərin həllinə nail olmaq üçün təhlil, müqayisəli təhlil, sorğu, statistik təhlil metodlardan istifadə edilmişdir. Sorğu metodu onlayn şəkildə “Google Forms” proqramı ilə sosial platformalar üzərindən aparılmışdır.**

**Tədqiqatın informasiya bazası: Tədqiqat aparılan zaman həm yerli, həm xarici ədə-biyyatlardan, həmdə elektron resurslardan istifadə olunmuşdur. Tədqiqatın daha effektli nəticə verməsi üçün onlayn sorğu keçirilmiş, sorğu nəticələri disertasiya işində öz əksini tapmışdır.**

**Tədqiqatın məhdudiyyətləri: İşğaldan azad olunmuş ərazilərə aid olduğu və bölgələrin yaxın bir zamanda azad olunduğu üçün istiqamətdə az araşdırmalar aparılmışdır.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Rəsmi statistik məlumatlar əsasında ölkədə və işğaldan azad olunmuş ərazilərdə əmək ehtiyatlarının mövcud vəziyyəti qiymətləndirilmişdir.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Aparılan tədqiqatdan ortaya çıxan nəticə və təkliflər ölkəmizdə işğaldan azad olunmuş ərazilərdə əmək ehtiyatlarının yeniliklərinin tətbiqi zamanı istifadə oluna və bu istiqamətdə aparılacaq digər tədqiqatlarda vasitəçi rolunu oynaya bilər.**



***Açar sözlər: əmək ehtiyatları, iqtisadi fəal əhali, işsizlik, məşğulluq.***

**ISSUES OF ENSURING EFFICIENT USE OF LABOR RESOURCES IN OCCPUIED TERRITORIES**

## SUMMARY

**The actuality of subject. The urgency of adapting principles across the country since independence has resulted in significant shifts in the reproduction and employment. Transition to market economy has resulted in the emergence of a labor market, highlighting the solution of employment and unemployment problems in the country. In order to solve these problems and develop long-term state programs to improve the social welfare of the population, it requires a statistical assessment of the processes taking place in the labor market.**

**Purpose and tasks of the research: The purpose of article is to investigate theoretical and methodological bases of the economic content of labor resources, to determine the regularity of structural changes and to suggest ways to use them effectively. It is also contained in proposals to improve the efficient use of labor resources. To analyze methodological reproduction of labor resources and determine methodological approaches to assess their effective use, to identify and analytically substantiate the characteristics and conditions of labor reproduction, to develop and substantiate proposals to improve labor reproduction, to suggest mechanisms to increase labor efficiency in liberated territories to do and scientifically substantiate.**

**Used research methods: Analysis, comparative analysis, survey, statistical analysis methods were used to achieve the solution of the issues raised in the research work. The survey was conducted online via Google Forms on social platforms.**

**The information base of the research: In the research was used local and foreign literature and electronic resources. An online survey was conducted to make the study more effective, and the results of the survey were reflected in the dissertation.**

**Restrictions of research: Since it belongs to the liberated territories and the units were liberated in the near future, little research has been done in this direction.**

**The novelty and practical results of investigation: On the basis of official statistics, the current state of labor resources in the country and in the liberated territories was assessed.**

**Scientific-practical significance of results: The outcomes and suggestions of the research can be used in the implementation of labor innovations in the liberated territories of our country and can play a mediating role in other research in this area.**

***Keywords: labor resources, economically active population, unemployment, employment.***

## İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **BƏT** | Beynəlxalq Əmək Təşkilatı |
| **DSK** | Dövlət Statistika Komitəsi |
| **ÜDM** | Ümumi Daxili Məhsul |

## MÜNDƏRİCAT


**GİRİŞ ........ 8**

**I FƏSİL. ƏMƏK EHTİYATLARINDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI ........ 11**

1.1. Əmək ehtiyatlarından istifadənin səmərəliliyinin metodoloji aspektləri ........ **11**

1.2. Əmək ehtiyatlarından səmərəli istifadənin amilləri və göstəriciləri. ........ **14**

**II FƏSİL. İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ ƏMƏK EHTİYATLARINDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ. ........ 23**

2.1. Əmək ehtiyatlarının mövcud vəziyyətinin təhlili. ........ **23**

2.2. İşğaldan azad edilmiş ərazilərdə əmək ehtiyatlarının təhlili. ........ **38**

**III FƏSİL. ƏMƏK EHTİYATLARINDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİ MEXANİZMLƏRİNİN TƏHLİLİ. ........ 57**

3.1. Əmək ehtiyatlarından istifadə mexanizmləri. ........ **57**

3.2. Əmək ehtiyatlarından istifadənin yaxşılaşdırılması istiqamətləri ........ **64**

**NƏTİCƏ VƏ TƏKLİFLƏR ........ 71**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI ........ 73**

Cədvəllərin siyahısı ........ **76**

Diaqramların siyahısı ........ **76**

Sxemlərin siyahısı ........ **77**

# GİRİŞ

**Mövzunun aktuallığı:** Azərbaycan Respublikasında bazar iqtisadiyyatına keçid əmək ehtiyatlarının təkrar istehsalı və məşğulluğunda mühüm dəyişikliklərə səbəb olmuşdur. Bazar iqtisadiyyatına keçid əməkl bazarının meydana gəlməsinə səbəb olmuş, mövcud olan məşğulluq və işsizliyin həll problemini ölkədə əsas məsələlərdən birinə çevrilmişdir. Belə ki, qeyd olunan problemlərin aradan qaldırılması və əhalinin rifah vəziyyətinin yaxşılaşdırılması məqsədi ilə uzunmüddətli dövlət proqramlarının işlənib hazırlanması baxımından əmək bazarında baş verən proseslərin statistik qiymtələnlidirilməsini tələbb edir. Rəsmi statistik məlumatlara diqqət yetirsək, əmək ehtiyatlarının tərkibində əməkqabiliyyətli yaşda olan əmək qabiliyyətli əhalinin xüsusi çəkisi 2005-ci ildə 97,8 faiz, 2020-ci ildə isə 97,6 faiz təşkil etmişdir. 2005-ci ildə əmək ehtiyatlarının tərkibində iqtisadiyyatda məşğul olan əmək qabiliyyətli yaşdan yuxarı şəxslərin xüsusi çəkisi 1,9%, 2020-ci ildə isə 2,4% təşkil etmişdir. Əmək qabiliyyətli yaşdan aşağı yaşda olan və əmək fəaliyyəti ilə məşğul olan şəxslərin xüsusi çəkisi 0,25% olmuşdur. 2011-ci ildən bu yana ölkədə əmək ehtiyatları sadəcə 2 əhali bölgüsü hesabına formalaşmağa başlamışdır. Belə ki, əmək ehtiyatlarını xarakterizə edən göstəricilərdən biri iqtisadi cəhətdən fəal əhalidir. İqtisadi cəhətdən fəal əhali məşğul və işsiz əhalinin sayını əhatə edərək, 15 yaş və daha yuxarı yaşda işləməyən, iş axtarmayan və işə başlamağa hazır olmayan şəxslərdir. 2005-2020-ci illər ərzində iqtisadi fəal əhalinin və iqtisadiyyatda məşğul olanların ümumi sayı hər il ardıcıl olaraq müsbət tempdə artmışdır. Ölkədə 2020-ci ildə 10093,1 min nəfər əhalinin 6473,9 min nəfəri əmək qabiliyyətli yaşda olan əhali olmuşdur. 2020-ci ildə ölkə əhalisinin 52,0 faizini iqtisadi fəal əhali, 48,0 faizini isə iqtisadi qeyri-fəal əhali təşkil etmişdir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Tədqiqatın ən əsas məsələsi əmək ehtiyatlarından istifadənin səmərəliliyini təhlil etmək, ölkənin əmək ehtiyatları ilə bağlı qarşılaşdığı problemlər və onların həlli yolunda verilən ilkin təkliflərdir. Müasir dövrdə əmək ehtiyatlarının formalaşmasının müəyyən edilmiş problemləri ilə əlaqədar əmək ehtiyatlarından səmərəli istifadəyə təsir edən amillərin öyrənilməsi zərurəti

yaranmışdır. Əmək ehtiyatlarından səmərəli istifadə problemi iqtisadiyyatın bütün sektorlarında əmək bazarının öyrənilməsində ən aktual məsələlərdən biridir. Regionlarda əmək ehtiyatlarından istifadə edilməsində mühüm məsələlərdən biri əmək qabiliyyətli əhalinin maddi nemətlər istehsal edən və maddi nemətlər istehsal etməyən sahələrdə çalışmasını nizamlamaqdan ibarətdir. Maddi nemətlər istehsalında əmək məhsuldarlığı yüksək olduqca əmək qabiliyyətli əhalinin maddi nemətlər istehsal etməyən sahəyə keçməsinə şərait yaranır. Bu məsələdə təsərrüfat sahələrinin mexanikləşməsi, işçi qüvvəsinin texniki silahlanması, yüksək səviyyəli kadr hazırlığı xüsusi əhəmiyyət kəsb edir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Dissertasiya tədqiqatının məqsədi əmək ehtiyatları anlayışının iqtisadi məzmununun nəzəri və metodoloji əsaslarını araşdırmaq və onlardan səmərəli istifadə edilməsi yollarını təklif etməkdir. Tədqiqatın məqsədinə uyğun olaraq:

- ❖ Əmək ehtiyatlarının nəzəri-metodoloji əsaslarının araşdırmaq;
- ❖ Əmək ehtiyatlarının mövcud vəziyyətini təhlil etmək;
- ❖ İşğaldan azad olunmuş ərazilərdə əmək ehtiyatlarından istifadənin səmərəliliyini artırılmasına dair təkliflər vermək.

**Tədqiqatın obyekti və predmeti:** Dissertasiya tədqiqatının obyekti işğaldan azad edilmiş ərazilərdə əmək ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi məsələlərinin öyrənilməsidir. Tədqiqatın predmeti isə əmək ehtiyatlarından səmərəli istifadə məsələlərinin öyrənilməsidir.

**Tədqiqat metodları:** Dissertasiya tədqiqatı zamanı müqayisəli təhlil, sorğu, statistik təhlil metodlarından istifadə edilmişdir. Sorğu metodu onlayn şəkildə “Google Forms” proqramı ilə sosial platformalar üzərindən aparılmışdır.

**Tədqiqatın informasiya bazası:** Elmi məqalələr, hesabatlar, tədqiqat institutlarının, Azərbaycan Respublikasının Konstitutsiyası, Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikasının Dövlət Statistikası Komitəsinin məcmuələri, hesabat materialları, aparılmış tədqiqatın nəticələri

dissertasiya işinin informasiya bazasını təşkil edir. Tədqiqatın daha effektli nəticə verməsi üçün onlayn sorğu keçirilmiş, sorğu nəticələri disertasiya işində öz əksini tapmışdır.

**Tədqiqatın mədudiyyətləri:** İşğaldan azad olunmuş ərazilərə aid olduğu və bölgələrin yaxın bir zamanda azad olunduğu üçün bu istiqamətdə az araşdırmalar aparılmışdır.

**Tədqiqatın elmi yeniliyi:** Rəsmi statistik məlumatlar əsasında ölkədə və işğaldan azad olunmuş ərazilərdə əmək ehtiyatlarının mövcud vəziyyəti qiymətləndirilmişdir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiqi sahələri:** Aparılan tədqiqatdan əldə olunan nəticə işğaldan azad olunmuş ərazilərdə əmək ehtiyatlarından istifadənin inkişafına zəmin yaradır. Tədqiqatın nəticələri aydın cədvəl, qrafiklərə əsaslanır və tədqiqatın məqsəd və vəzifələrinə uyğundur.

# I FƏSİL. ƏMƏK EHTİYATLARINDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

## 1.1. Əmək ehtiyatlarından istifadənin səmərəliliyinin metodoloji aspektləri

Müasir dövrdə ölkə iqtisadiyyatının dayanıqlı inkişafının, əhalinin həyat səviyyəsinin və onun keyfiyyətinin yüksəldilməsinin ən vacib ünsürlərindən biri əmək ehtiyatlarından düzgün və effektli istifadə edilməsidir. Əmək ehtiyatları ölkə qanunvericiliyi ilə müəyyən olunmuş aşağı və yuxarı yaş sərhədləri olan və əmək fəaliyyətini həyata keçirə bilən əhalidir. (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, "Statistika xəbərləri" elmi-praktik jurnalı, №4, 2021, s.38). Əmək ehtiyatlarından səmərəli istifadə olunması global problemlərin sürətlə artdığı bir dövrdə qarşıya qoyulmuş əsas məsələlərdən biri hesab edilir. Əmək ehtiyatlarından istifadə və səmərəliliyinin artırılması müasir istehsalın mühüm vəzifələrindən biridir.

Ümummilli lider Heydər Əliyev XXI əsr və üçüncü minillik məqsədilə ölkə əhalisiniə müraciətində XX əsrin son dövrlərində ölkədə aparılmış quruculuq işlərindən bəhs etmişdir (http://dgk.nmr.az/media/files/cde88643eea575802e3a9a3dc7136542.pdf). Belə ki, əmək ehtiyatlarından səmərəli istifadə, əhalinin ictimai əmək hesabına olmaqla iqtisadiyyatın formalaşmasında iştirakının təmin edilməsi həmin illərdə ölkənin ən mühüm problemlərindən idi.

Hazırda ölkənin əmək ehtiyatlarından səmərəli istifadəsi, davamlı iqtisadi inkişafının təmin edilməsi məqsədilə Milli İqtisadi İnkişaf Modeli formalaşdırılmışdır.

**Sxem 1: Milli İqtisadi İnkişaf Modelinin əsas xüsusiyyətləri**

- Dövlət iqtisadiyyatın tənzimlənməsində həlledici rol oynayır;
- •Model sosialyönümlü xarakter daşıyır;
- •İqtisadiyyatın modernləşməsi və innovativ inkişafı əsas prioritet hesab edilir;
- •Ölkəmizin iqtisadiyyatı dünyanın inkişaf etmiş ölkələrinin iqtisadiyyatına inteqrasiya olunur;
- İnhisarçılığın məhdudlaşdırılması və rəqabət mühitinin formalaşdırılması əsas hədəflər sırasında yer alır.

**Mənbə*:*** Tofiq Hüseynov, Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika., Bakı, 2015.

Hal-hazırda müəssisənin səmərəliliyi və onun rəqabət qabiliyyəti müəssisədə əmək ehtiyatlarından düzgün istifadə edilməsindən çox asılıdır. Əmək ehtiyatları sosial-iqtisadi və xüsusilə əmək münasibətlərinin tərkib hissəsi və mühüm hissəsidir. Belə ki, onlar əsas istehsal amillərindən biri kimi çıxış edirlər və onlarsız iqtisadi problemləri həll etmək, əhalinin tələbatını ödəmək mümkün deyil.

"Əmək ehtiyatları" anlayışının iqtisadi ədəbiyyatlarda ən çox istifadə edildiyi dövr XX əsrin 20-ci illəri olmuşdur. Belə ki, ilk dəfə olaraq bu termini sovet iqtisadçısı və statistiki akademik S.Q.Strumilin 1922-ci ildə məqalələrinin birində istifadə etmiş və əmək ehtiyatlarını əhalinin əmək üçün zəruri olan fiziki inkişafa və intellektual (zehni) qabiliyyətlərə malik hissəsidir kimi qeyd etmişdir (https://ru.wikipedia.org/wiki/Трудовые_ресурсы).

İqtisadi ədəbiyyatlarda əmək ehtiyatları anlayışına müxtəlif təriflər verirlər. E.A.Saruxanov əmək ehtiyatlarını əhalinin fiziki inkişafa, əqli qabiliyyətlərə və xalq təsərrüfatında işləmək üçün zəruri olan biliyə malik hissəsidir, yəni əmək ehtiyatlarına

bir tərəfdən iqtisadiyyatda işləyən, digər tərəfdən isə işlə təmin olunmayan, lakin işləmək qabiliyyəti olan insanlar daxildir (Саруханов Э.Р. 1999).

Rus iqtisad elmləri doktoru, professor B.O.Breev əmək ehtiyatlarını əmək qabiliyyətinə malik olan insanlar ilə əlaqələndirirdi (Бреев Б.О. 1989). Yu.M.Ostapenko isə əmək ehtiyatlarını xalq təsərrüfatında faydalı əmək fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan fiziki inkişafa, əqli qabiliyyətlərə və biliyə malik olan əhalinin əmək qabiliyyətli hissəsi hesab edirdi (Новиков В.Г. 2011).

Yu.P.Kokinə görə isə əmək ehtiyatları əhalinin intellektual və fiziki imkanlara malik olan, maddi nemətlər yaratmaq və ya xidmət göstərmək qabiliyyətinə malik olan əmək qabiliyyətli hissəsidir (Кокин Ю.П, П.Э.Шлендер 2010).

Rus iqtisadçıları Yu.G.Odeqov və G.G.Rudenko fikirləri isə eynilik təşkil edirdi. Onlar əmək ehtiyatlarını iqtisadi və planlaşdırma və uçot kateqoriyası hesab edirlər. İqtisadi kateqoriya kimi əmək ehtiyatları ölkə əhalisinin ictimai faydalı fəaliyyət sahəsində işləmək üçün zəruri fiziki inkişafa, səhiyyəyə, təhsilə, mədəniyyətə, qabiliyyətlərə, ixtisaslara və peşə biliklərinə malik olan hissəsidir (Одегов Ю.Г, Г.Г.Руденко, Л.С.Бабынина 2007).

Mənaca oxşar təriflər qeyd edən tanınmış rus iqtisadçıları A.Ya.Kibanov, A.İ.Rofe, P.E.Şlender, və bir çox digər iqtsiadçılar, hamısı razılaşır ki, əmək ehtiyatları keyfiyyət xüsusiyyətlərinə malikdir və cəmiyyətin, ölkənin, ərazinin və ya müəssisənin məhsuldar qüvvələrinin tərkib hissəsidir (А.Я.Кибанова 2010, Рофе А.И. 2010, Кокин Ю.П., П.Э. Шлендер 2010).

Rus iqtisadçısı G.S.Veçkanov əmək ehtiyatlarının iqtisadi mahiyyətini cəmiyyət, əmək kollektivi və fərd arasında formalaşan əmək qabiliyyətinin istehsalı, bölüşdürülməsi, mübadiləsi və istehlakı ilə bağlı onların maraqlarına, sosial ehtiyaclarına və səviyyəsinə uyğun olaraq inkişaf edən münasibətlər kimi ifadə edir (Г.С. Вечканов, Г.Р. Вечканова 2002). Bu tərifə əsasən deyə bilərik ki, əmək ehtiyatları insan, cəmiyyət arasında iqtisadi münasibətlər şəklində təqdim olunur.

Əmək ehtiyatları ölkə əhalisinin zəruri fiziki inkişaf, sağlamlıq, təhsil, mədəniyyət, bacarıqlar, ixtisaslar, ictimai faydalı fəaliyyət sahəsində işləmək üçün peşəkar biliklərə malik hissəsidir.

"Əmək ehtiyatları" anlayışı ilə bağlı müxtəlif fikirləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, onlar cəmiyyət, əmək kollektivi və fərd arasında iqtisadi və əmək münasibətləri prosesində formalaşan psixofizioloji və intellektual keyfiyyətlərə malik əhalinin təsərrüfat və istehsalat fəaliyyətlərində iştirak etmək üçün zəruri olan bir hissəsini əhatə edir.

### 1.2. Əmək ehtiyatlarından səmərəli istifadənin amilləri və göstəriciləri

Əmək ehtiyatlarından səmərəli istifadə edilməsi mürəkkəb bir problemdir. Əmək ehtiyatlarından səmərəli istifadənin həlli zamanı müxtəlif iqtisadi, sosial və demoqrafik xarakteristikaları nəzərə almaq lazımdır (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, "Statistika xəbərləri" elmi-praktik jurnalı, №4, 2021, s.39).

Əmək ehtiyatlarının ölkə iqtisadiyyatının sahələr üzrə bölüşdürülməsi və onlardan səmərəli istifadə edilməsi, işçi qüvvəsinə tələbin müəyyən edilməsi və mənfəət əldə edilməsi üçün müvafiq tədbirlərin həyata keçirilməsini özündə cəmləyir. Bütün əmək ehtiyatlarından səmərəli istifadə edilməsi cəmiyyətin ən mühüm məsələlərindən biridir. (Zeynallı Ə., Zeynallı Z., 2011).

**Sxem 2: Əmək ehtiyatları göstəriciləri**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/

Əmək ehtiyatlarının kəmiyyət göstəriciləri dedikdə əmək qabiliyyətli əhalinin sayı, cins, yaş tərkibi, nəzərdə tutulur. Keyfiyyət göstəricilər isə sağlamlığı, fiziki iş qabiliyyəti, ümumi təhsil, peşə hazırlığı, ixtisas səviyyəsi anlaşılır.

Rəsmi statistikada əmək ehtiyatlarının sayı iqtisadi və demoqrafik qayda ilə hesablanır. İqtisadi qayda ilə əmək ehtiyatlarının sayını hesablayarkən qeyd olunan məqamlar nəzərə alınmalıdır:

- Şəxsi, yardımcı və kəndli təsərrüfatlarında işləyənlər;
- Ev təsərrüfatı və həmçinin uşaqlara baxanlar;
- 16 yaşdan yuxarı yaşda olub istehsalatdan ayrılmaqla təhsil alan şəxslər.

Demoqrafik qayda isə əmək qabiliyyətli yaşda əhalinin, iqtisadiyyatda əmək fəaliyyəti ilə məşğul olan və yaş həddi pensiya yaşından yuxarı olan, əmək qabiliyyətli yaşdan aşağı olan şəxslərin sayını nəzərə alır. Əmək qabiliyyətli əhalinin paylanması ölkə ərazisində qeyri-bərabərdir. Belə ki, respublikada əmək qabiliyyətli əhalinin böyük hissəsi Abşeron iqtisadi rayonunda birləşmişdir. Həmçinin əmək ehtiyatlarının sayı stabil qalmayaraq il ərzində dəyişilir.

Əmək ehtiyatları anlayışının məzmunu kəmiyyət və keyfiyyət göstəriciləri ilə ifadə olunur. Kəmiyyət göstəriciləri əmək ehtiyatlarından istifadə dərəcəsini, keyfiyyət göstəriciləri isə peşə təhsilinin səviyyəsini və əmək ehtiyatlarının peşə və ixtisas

xüsusiyyətlərinə, onlardan istifadə ehtiyaclarına uyğunluğunu müəyyən edir. Kəmiyyət göstəricisi kimi əmək ehtiyatlarına rus iqtisadçıları S.G.Strumilin, E.V.Kasimovski, T.I.Zaslavskaya əmək ehtiyatları kəmiyyət və demoqrafik cəhətdən müəyyən edilmiş potensial və aktiv işçi qüvvəsinin sayını təmsil edir kimi yanaşmışdırlar. Kəmiyyət və keyfiyyət göstəricisi kimi əmək ehtiyatlarına rus iqtisadçıları E.R.Saruxanov, Yu.Q.Odeqov, G.G.Gudenko, A.Ya.Kibanov, A.İ.Rofe, Yu.M.Ostapenko və.s əmək ehtiyatları faydalı əmək fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan fiziki və intellektual qabiliyyətlərə malik əhalinin bir hissəsidir kimi qeyd etmişdirlər. İqtisadi yanaşma olaraq G.S.Veçkanov iqtisadi kateqoriya kimi əmək ehtiyatlarını cəmiyyət, əmək kollektivi və fərd arasında formalaşmış əmək qabiliyyətinin istehsalı, bölüşdürülməsi, mübadiləsi və istehlakı ilə bağlı onların maraqlarına, sosial ehtiyaclarına və inkişaf səviyyəsinə uyğun olan münasibətləri kimi ifadə edir. Beləliklə əmək ehtiyatları tərifinə üç yanaşma ayırmaq olar: kəmiyyət (S.G. Strumilin, E.V. Kasimovski, T.İ. Zaslavskaya), kəmiyyət və keyfiyyət (E.R.Saruxanov, Yu.Q.Odeqov , G.Q.Rudenko, A.Ya.Kibanov, A.İ.Rofe, Yu.M.Ostapenko və başqaları) və iqtisadi (Q.S.Veçkanov) (Г.С. Вечканов 2002., Рофе А.И., 2010).

Əmək ehtiyatlarından səmərəli istifadə təşkilatın əsas vəsaitlərlə təmin edilməsi, əsas kapitala investisiyalar və əməyin maddi həvəsləndirilməsi kimi amillərlə müəyyən edilir. Əmək nəticələri və onların səmərəliliyi birbaşa və bilavasitə əməyə maddi həvəsləndirmədən asılıdır.

Eyni zamanda, investisiya səviyyəsinin əhalinin məşğulluq göstəricilərinə təsirini qeyd etmək vacibdir. Kapital qoyuluşunun yüksək səviyyəsi istehsalın artımını və genişlənməsini, əsas fondların yenilənməsini və yeni iş yerlərinin yaradılmasını təmin edir. İşsizliyin azaldılması və məşğulluğun artırılması əlavələrin daxil olmasına töhfə verəcək işçi qüvvəsi bütövlükdə iqtisadi artıma müsbət təsir göstərəcək.

Məşğulluğun artmasına təsir edən digər amil orta əmək haqqının səviyyəsidir. Yüksək əmək haqqı işsizləri cəlb etməyə və əmək bazarındakı gərginliyi azaltmağa kömək edir. Qeyd olunan amillərin qiymətləndirilməsi əmək ehtiyatlarından müxtəlif

səviyyələrdə istifadənin səbəblərini, habelə onlardan səmərəli istifadənin artırılması şərtlərini üzə çıxardır.

Bazar münasibətləri şəraitində müəssisənin əmək ehtiyatlarının artırılması və keyfiyyətli istifadəsi bazarda sabit və daha da lider mövqeləri zəbt etmək üçün əvəzsiz şərtə çevrilir. Təşkilatın insan resurslarının idarə edilməsinin effektivliyi birbaşa onun rəqabət qabiliyyətinə təsir edir və müəssisə üstünlüklərinin yaradılmasının ən vacib sahələrindən biridir.

Yeni iqtisadi şəraitdə təşkilatın əmək ehtiyatlarından istifadənin əldə edilmiş səmərəliliyi səviyyəsinin rəqabət şəraitində müəssisə tərəfindən irəli sürülən tələblərə uyğunluğu problemi xüsusilə aktuallaşır, buna görə də əməyin idarə edilməsi sisteminin əsas vəzifələrindən biridir.

Əmək ehtiyatlarından istifadənin səmərəliliyinin ehtiyatlarını müəyyən etmək üçün əmək fəaliyyətinə təsir edən amilləri müəyyən etmək lazımdır.

Bu amilləri iki qrupa bölmək olar:

1) təşkilatın xarici mühitinin amilləri;

2) təşkilatın daxili mühitinin amilləri.

Təşkilatın xarici mühitinin amillərinə makroiqtisadi və regional amillər daxildir: sosial-iqtisadi sistemin inkişaf mərhələsi, əhalinin təkrar istehsalı, ixtisaslı işçi qüvvəsinin hazırlanması, əmək qanunvericiliyi, işçi qüvvəsinin sənaye və regionlar üzrə bölgüsü, təbii-iqlim şərait, sosial infrastrukturun inkişafı, regional əmək bazarının vəziyyəti, əhalinin mobilliyi.

Əmək ehtiyatlarından istifadənin səmərəliliyini xarakterizə edən göstəricilər haqqında müxtəlif fikirlər mövcuddur. Onlardan biri odur ki, əmək ehtiyatlarından istifadənin səmərəliliyinin bütün göstəriciləri içərisində ən ümumiləşdiricisi əmək məhsuldarlığıdır. Bu, ümumilikdə iqtisadiyyatda çox mühüm və tutumlu göstəricidir. Əmək məhsuldarlığı həm də iqtisadi səmərəliliyin ən mühüm göstəricilərindən biridir.

Dünya bazarında rəqabət aparmaq üçün iqtisadi subyektlər inkişaf etməlidir. Bu inkişaf yeniliyi izləməklə müəyyən səviyyəyə qədər əldə olunsa da, bu rəqabəti təmin

etmək üçün işçilərinin məhsuldarlığını qoruyub saxlamalıdır. Bununla belə, işçilər inkişaf etməkdə olan dövrün tələbatını ödəyə bilən ixtisaslı avadanlıqlara malik ixtisaslı insanlardan ibarət olarsa, onların bağlı olduqları müəssisələr dünya bazarlarında rəqabət aparmaq şansı əldə edəcəklər (Yıldız Teknik Üniversitesi, Yüksek lisans tezisi, Verimlilik artırma teknikleri, İstanbul 2007).

Məhsuldarlığa təsir edən faktorlar ümumi qaydada aşağıdakı kimi qruplaşdırılmışdır:

- İnsanlar arasında qarşılıqlı inam;
- motivasiya;
- uğur yönümlü olmaq;
- mədəni dəyərlər;
- görülən işlərlə fəxr etmək;
- bütün müvafiq sahələrdə biliklərdən faydalanmaq;
- elm və texnologiyanın ağıllı tətbiqi;
- xüsusi texnika və yanaşma;
- tədris və təlim;
- effektiv qiymət;
- effektiv iş mühiti;
- effektiv ünsiyyət;
- əməkdaşlığa təşviq edən qanunvericilik və təşkilati mühit (Yıldız Teknik Üniversitesi, Yüksek lisans tezisi, Verimlilik artırma teknikleri, İstanbul 2007).

Məhsuldarlığın ölçülməsi və ya məhsuldarlığın təhlili məhsuldarlığın artımını təmin etmək üçün vacibdir. Məhsuldarlığın ölçülməsində hər hası alətlərdən istifadə edilə bilməz, çünki iqtisadi sistemlər insanlarla məşğul olur. İnsanların əsas və standartlaşdırılmış iş səviyyəsi yoxdur. Məhsuldarlığın ölçülməsinin məqsədi səmərəliliyi artırmaqdır. Bu ölçmələr nəticəsində insanlar mükafatlandırılmır və ya cəzalandırılmır, yalnız mövcud vəziyyət təhlil edilir.

Ümumilikdə məhsuldarlığı artıran vasitələri altı əsas qrupda qruplaşdırırlar:

1. İstehsal proseslərinin tədqiqi, inkişafı və tətbiqi (yeni texnologiya tətbiqi);
2. Yeni maşın, avadanlıq, alətlər və s. istehsal xətlərinin inkişafı;
3. Məhsulun sadələşdirilməsi və məhsulun inkişafı, (çeşidlərin azaldılması, dəyərin təhlili və s.);
4. İş üsullarının işlənib hazırlanması;Hər səviyyədə işçi qüvvəsindən yaralanma dərəcəsinin artırılması;
5. Təşkilat, planlaşdırma və nəzarət funksiyalarının inkişafı (Yıldız Teknik Üniversitesi, Yüksek lisans tezisi, Verimlilik artırma teknikleri, İstanbul 2007).

Müasir dövrdə əmək ehtiyatlarının istifadənin iqtisadi effektivliyinin artırılmasına insan kapitalının inkişafı ilə yolu ilə nail olunur. Əgər insan kapitalı anlayışının izinə düşsək, onun ən azı 18-ci əsrdə yaşamış Şotland iqtisadçısı Adam Smitə aid olduğunu görmək olar. Lakin 1950-ci və 60-cı illərin sonlarında o, mühüm iqtisadi konsepsiya kimi meydana çıxmağa başladı. Məhz o zaman Teodor Şults kimi iqtisadçılar rifah və iqtisadi artıma nail olmaqda təhsil və təcrübənin rolunu təsvir etmək üçün iqtisadiyyatda çoxdan formalaşmış bir anlayış olan "kapital" metaforasından istifadə etməyə başladılar. Bu iqtisadçılar iddia edirdilər ki, insanlar ümumi və peşə hazırlığına sərmayə qoymaqla uzunmüddətli gəlirlər yarada bilən bacarıq və bacarıqlar (kapital) ehtiyatı yaradırlar. Bu investisiya həm də milli iqtisadiyyatlara fayda verə bilər və iqtisadi artıma kömək edə bilər. Beləliklə, mahiyyət etibarı ilə insan kapitalı geniş şəkildə fərdlərin ümumi və peşə təhsili vasitəsilə əldə etdikləri bacarıq və öyrənmənin, onların öz təbii istedad və qabiliyyətlərinin məcmusunu əhatə edən kimi müəyyən edilir. İnsan kapitalı müxtəlif iqtisadi və qeyri-iqtisadi faydalar verir. Əslində, onun ən böyük faydalarından bəziləri iqtisadi olmaya bilər. İqtisadi baxımdan insan kapitalından əldə olunan gəlirlər fərdin rifahı və milli iqtisadiyyat baxımından başa düşülə bilər. Fərdi səviyyədə, insanın təhsil səviyyəsi yüksəldikcə gəliri də sürətlə artmağa meyillidir. Danimarka və Yeni Zelandiya kimi bəzi İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv (Organization for Economic Cooperation and Development, OECD) ölkələrdə universitet təhsili olan insanlar orta təhsillilərdən 25% daha yüksək

maaş alırlar. Digər ölkələrdə bu fərq daha da diqqəti çəkir və 120%-ə çata bilər. Eyni zamanda, fərdlərin hər il təhsilə xərclədiyi vəsait zamanla istehsalda 3%-6% artım görə bilər (https://www.oecd.org/insights/38435942.pdf).

Cari dövrdə ölkədə əmək ehtiyatı kimi müəyyən edilən resurslardan istifadənin effektivliyinin yüksəldilməsi, əmək bazarının dayanıqlı inkişafının təmin edilməsi və onun mövcud iqtisadi inkişafın artım dinamikasına uyğunlaşdırılması əsas vəzifələrdən hesab olunur. Bu isə öz növbəsində əmək bazarının əsas iştirakçıları sayılan işçi qüvvəsinin əməyindən istifadənin səmərəliliyinin artırılması məsələlərini gündəmə gətirmiş olur ki, bu məsələnin həllinə müasir iqtisadi tələblərə cavab verən peşə-ixtisas standartlarının və bunlar sayəsində isə təhsil, təlim və tədris proqramlarının işlənib hazırlanması və tətbiq olunması ilə nail olunur.

İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın formalaşdırılması qeyd edildiyi kimi əmək ehtiyatlarının düzgün planlaşdırılmasından başlayır. Bölgə üzrə əmək ehtiyatlarının düzgün planlaşdırılmasında isə həmin bölgədə fəaliyyət göstərəcək iqtisadi istiqamətlər üzrə olmaqla rəqabətqabiliyyətli, eləcə də prioritet peşə ixtisaslarının müəyyənləşdirilməsi zəruridir.

Prioritet peşə istiqamətlərinin müəyyənləşdirilməsi üçün ilkin olaraq həmin bölgədə gələcək dövrdə fəaliyyəti nəzərdə tutulan iqtisadi sahələrinin müəyyənləşdirilməsi və həmin sahələrinin insan resursunu qəbul etmə potensialının proqnozlaşdırılması vacibdir.

Gələcəkdə işğaldan azad edilmiş ərazilərdə əmək ehtiyatlarının düzgün planlaşdırılması onlardan səmərəli istifadə baxımından həmin ərazilərdə, eləcə də oraya yaxın digər ərazilərdə peşə təhsilində iştiraka marağın artırılması olduqca vacibdir. Həmin ərazilərdə prioritet peşə ixtisasları müəyyənləşdirələrkən regionun gələcək inkişaf meyllərinin nəzərə alınması, sahibkarlıq subyektləri ilə birgə əməkdaşlıqların edilməsi zəruridir.

**Diaqram 1: 1990-2020-ci illərdə peşə təhsili müəssisələrini bitirənlərin sayı, nəfər**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycanda təhsil, elm və mədəniyyət., 2021.

Diaqram 1-ə əsasən 1990-cı illə müqayisədə 2020-ci ildə peşə təhsili müəssilərini bitirənlərin sayı 3,8 dəfə azalmışdır. Qeyd edilən dinamikanın baş verməsi peşə təhsilinə önəmin verilmədiyini əyani sübut etmiş olur.

Statistik məlumatlara əsasən hazırda Qarabağ iqtisadi rayonunda peşə təhsili müəssisələrinin sayı 8, Şərqi-Zəngəzur iqtisadi rayonunda isə 5-dir. Statistik məlumatların təhlili göstərir ki, Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarında cari dövrdə peşə təhsili müəssisələrində təhsil alanların sayı bölgə üzrə olduqca azdır.

**Diaqram 2: İqtisadi rayonlar üzrə 2021-ci ildə peşə təsili alan şəxslərin sayı, nəfərlə**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycanda təhsil, elm və mədəniyyət., 2021.

Bu baxımdan işğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın dirçəldilməsi üzrə fəaliyyət proqramlarına kompleks yanaşılmalı həmin proqramlarda əmək ehtiyatlarının düzgün formalaşdırılması və həmin ehtiyatlardan effektiv istifadənin təmin edilməsi baxımından rəqabətqabiyyətli mütəxəssislərin hazırlanması məsələləri də əks etdirilməlidir.

# II FƏSİL. İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ ƏMƏK EHTİYATLARINDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. Əmək ehtiyatlarının mövcud vəziyyətinin təhlili

Əmək ehtiyatlarından istifadənin səmərəliliyinin artırılması istiqamətində son dövrlərdə ölkədə həyata keçirilən fundamental iqtisadi islahatların nəticəsi kimi əmək bazarının dayanıqlığının və keyfiyyətinin artırılması üzrə beynəlxalq təcrübəyə əsaslanan yeni təlim və təhsil layihələrinin hazırlanmış və onların tətbiqinə nail olunmuşdur. Bu da öz növbəsində ölkəmizə xarici işçi qüvvəsinin, həmçinin əmək ehtiyatları arasında rəqabətə marağın artmasına səbəb olur. Əmək ehtiyatlarından səmərəli istifadənin təmin edilməsində institutsional olaraq yanaşılması tələb olunan əsas problemlərindən biri kimi əmək resurslarının ölkə üzrə optimal olaraq bölünməsi, iqtisadi artım ilə resurs arasında düzgün əlaqənin formalaşdırılması qeyd edilə bilər. İstər bütövlükdə ölkədə, istərsə də regionlarda iqtisadi artım əmək ehtiyatlarının kəmiyyət və keyfiyyətindən, onlardan səmərəli istifadə olunmasından bilavasitə asılıdır.

Əmək ehtiyatları cəmiyyətin əsas məhsuldar qüvvəsini və iqtisadiyyatın dayanıqlı inkişafını təmin edən amildir. Yüksək məşğulluq səviyyəsi iqtisadi artımın əsas amillərindən biridir. Əmək ehtiyatlarından səmərəli istifadənin inkişafı innovativ iqtisadiyyatın inkişafının əsasını təşkil edir.

Beynəlxalq Əmək Təşkilatı (BƏT) təsnifatına uyğun olaraq, əmək ehtiyatlarının strukturu əmək qabiliyyətli əhalinin iki qrupu ilə təmsil olunur: 1) iqtisadi-fəal (aktiv), 2) iqtisadi qeyri-fəal (passiv). İqtisadi-fəal dedikdə ictimai təkrar istehsalda məşğul olanların hamısı - işləyən vətəndaşlar (yaşlı və əmək qabiliyyətli yaşdan kiçik) və fəal iş axtaran və işə başlamağa hazır olan işsizlər daxildir. İqtisadi qeyri-fəal dedikdə isə ictimai istehsalatda məşğul olmayan əmək qabiliyyətli əhali və hazırda işləməyə can atmayan şəxslər daxildir. Təhsil, cins, peşə və s. kimi qrup xüsusiyyətlərinə görə əmək

ehtiyatlarını müxtəlif nöqteyi-nəzərdən xarakterizə etməyə imkan verən bir sıra başqa təsnifatlar da mövcuddur (https://un.mfa.gov.az/az).

Əmək ehtiyatları daha çox əhali ilə bağlıdır. Belə ki, əmək ehtiyatlarının sayı demoqrafik amillərlə müəyyən edilir.

**Sxem 3: Əhalinin tərkib hissələri**




**Mənbə:** Azərbaycan Respubliksı Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/

DSK-nın rəsmi məlumatlarına uyğun olaraq 2010-cu illə müqayisədə Azərbaycanda əhalinin sayı 2021-ci ildə 1121,5 min nəfər, faizlə desək 12,5% artaraq 10 milyon 119 min nəfərə çatmışdır (Azərbaycanın demoqrafik göstəriciləri., 2021).

Əmək qanunvericiliyi ilə müəyyən edilmiş hədlər çərçivəsi daxilində respublikada mövcud olan əmək ehtiyatlarının tərkibinə qeyd olunan əhali kateqoriyaları aid edilir:

- əmək qabiliyyətli yaşda olan əhali;
- əmək qabiliyyətli yaşdan yuxarı yaş həddində olub iqtisadiyyatda işləyən şəxslər (pensiyaçılar, yaşa görə sosial müavinət alanlar və s.) (https://e-qanun.az/framework/46943).

**Cədvəl 1: Əmək ehtiyatlarnın sayı, min nəfərlə**

| | 2005 | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | *Artım faizlə (2005-ci ilə nəzərən)* |
|---|---|---|---|---|---|---|---|---|---|
| Əmək ehtiyatları | 5421,3 | 6015,0 | 6335,9 | 6350,4 | 6408,1 | 6478,2 | 6569,3 | 6634,2 | *122,4%* |
| Məşğul olan əhalinin sayı | 4062,3 | 4329,1 | 4671,6 | 4759,9 | 4822,1 | 4879,3 | 4938,5 | 4876,6 | *120,0%* |
| İqtisadiyyatda məşğul olmayanlar | 1359,0 | 1685,9 | 1664,3 | 1590,5 | 1586,0 | 1598,9 | 1630,8 | 1757,6 | *129,3%* |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Əmək bazarı, 2021.

2005-2020-ci illərdə ölkədə əmək ehtiyatları ilə əhalinin məşğulluq səviyyəsinin dinamikasında dəyişikliklər baş vermişdir. 2005-ci il ilə müqayisə etsək ölkədə əmək ehtiyatlarının sayı 22,4% artaraq 6634,2 min nəfər, məşğul əhalinin sayı isə 20,0% artaraq 4876,6 min nəfər olmuşdur. (Cədvəl 1).

Əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli əhali – aşağı yaş həddi 15 yaş və yuxarı yaş həddi isə yaşa görə əmək pensiyasının təyin edilməsi üçün müəyyən edilmiş yaş həddində olan və hər hansı bir əmək fəaliyyətini həyata keçirə bilən əhalidir.

**Cədvəl 2: 2016-2020-ci illərdə ölkədə kişilər və qadınların pensiya yaşı üzrə bölgüdə**

| İllər | Kişilər | Qadınlar |
|---|---|---|
| 01.07.2017-dən | 63,5 | 60,5 |
| 01.07.2018-dən | 15-64 | 61 |
| 01.07.2019-dan | 15-64,5 | 61,5 |
| 01.07.2020-dən | 15-65 | 62 |
| 01.07.2021-dən | 65 | 62,5 |
| 01.07.2022-dən | 65 | 63 |

**Mənbə:** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, https://www.sosial.gov.az/yashagoreemekpensiyasi/

Pensiya təminatına dair qanunvericilik aktlarına edilmiş dəyişikliyə əsasən hszırda kişilərə yaşa görə əmək pensiyasının təyin edilməsi üçün yaş həddi 65, qadınlar üçün isə bu tələb 62 yaş 6 ay olaraq (2027-ci ilə qədər qadınlar üçün bu tələb hər il 6 ay artırılmaqla 65 yaşa çatdıralacaqdır) nəzərdə tutulmuşdur.

**Cədvəl 3: 2005-2020-ci illər ərzində ölkədə əmək ehtiyatlarının sayı, min nəfərlə**

| | 2005 | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|
| Əmək ehtiyatları | 5421,3 | 6015,0 | 6335,9 | 6350,4 | 6408,1 | 6478,2 | 6569,3 | 6634,2 |
| əmək qabiliyyətli yaşda əmək qabiliyyətli əhalinin sayı | 5304,0 | 5875,7 | 6198,7 | 6207,0 | 6262,2 | 6326,7 | 6408,5 | 6473,9 |
| *yekuna nəzərən faizlə* | 97,8 | 97,7 | 97,8 | 97,7 | 97,7 | 97,7 | 97,6 | 97,6 |
| iqtisadiyyatda məşğul olan əmək qabiliyyətli yaşdan yuxarı şəxslər | 103,8 | 133,1 | 137,2 | 143,4 | 145,9 | 151,5 | 160,8 | 160,3 |
| *yekuna nəzərən faizlə* | 1,9 | 2,2 | 2,2 | 2,3 | 2,3 | 2,3 | 2,4 | 2,4 |
| İqtisadiyyatda məşğul olan 15 yaşınadək yetkinlik yaşına çatmayan şəxslər | 13,5 | 6,2 | - | - | - | - | - | - |
| *yekuna nəzərən faizlə* | 0,25 | 0,1 | - | - | - | - | - | - |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Əmək bazarı, 2021.

Rəsmi statistik məlumatların təhlili göstərir ki, 2020-ci ildə Azərbaycanda əmək ehtiyatlarının sayı 2005-ci illə müqayisədə nisbi ifadədə 22,3 faiz, mütləq ifadədə isə 1212,9 min nəfər qədər artmışdır. 2019-cu illə müqayisədə 2020-ci ildə ölkədə əmək ehtiyatlarının sayı 0,9% və ya mütləq ifadədə 64,9 min nəfər artmışdır. Əmək ehtiyatlarının tərkibində əməkqabiliyyətli yaşda olan əmək qabiliyyətli əhalinin xüsusi çəkisi 2005-ci ildə 97,8 faiz, 2020-ci ildə isə 97,6 faiz təşkil etmişdir. 2005-ci ildə əmək ehtiyatlarının tərkibində iqtisadiyyatda məşğul olan əmək qabiliyyətli yaşdan yuxarı şəxslərin xüsusi çəkisi 1,9%, 2020-ci ildə isə 2,4% təşkil etmişdir, əməkqabiliyyətli yaşdan aşağı yaşda olan və iqtisadiyyatda çalışan şəxslərin sayının xüsusi çəkisi 0,25% olmuşdur. 2011-ci ildən bu yana isə ölkənin əmək ehtiyatları yalnız 2 əhali bölgüsü hesabına formalaşmağa başlamışdır. (Cədvəl 3). Belə ki, 2011-ci ildən etibarən isə əmək ehtiyatları iqtisadiyyat və digər müxtəlif sahələrində işləyən yeniyetmələr mövcud deyildir. Bu isə Azərbaycan Respublikasının Konstitusiyasının 17-ci

maddəsinə müvafiq olaraq “15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər” müddəasına uyğundur (Azərbaycan Respublikasının Konstitusiyası, 2016). Qeyd olunan statistik məlumatlar əmək bazarının daha effektiv şəkildə təşkil olunmasının təsir edən çox vacib məsələlərdir. Əmək bazarının döğru təşkili işsizliyin azalmasına və getdikçə aradan çıxmasına tutarlı təminat yaradır. Belə ki, təhlil olunan bu məsələlər həmişə ön planda olmalıdır.

**Cədvəl 4: İqtisadi fəal əhalinin sayı**

| | 2005 | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|
| Əhalinin orta illik sayı, min nəfərlə | 8500,3 | 9054,3 | 9649,3 | 9854,0 | 9939,8 | 10024,3 | 10093,1 |
| İqtisadi fəal əhalinin sayı,min nəfərlə | 4380,1 | 4587,4 | 4915,3 | 5073,8 | 5133,1 | 5190,1 | 5252,5 |
| *Kişilər* | 2268,8 | 2329,7 | 2510,8 | 2609,0 | 2637,4 | 2664,1 | 2685,0 |
| *Qadınlar* | 2111,3 | 2257,7 | 2404,5 | 2464,8 | 2495,7 | 2526,0 | 2567,5 |
| İqtisadiyyatda məşğul olanların sayı, min nəfərlə | 4062,3 | 4329,1 | 4671,6 | 4822,1 | 4879,3 | 4938,5 | 4876,6 |
| *Kişilər* | 2104,7 | 2227,4 | 2408,2 | 2502,8 | 2529,4 | 2556,8 | 2525,1 |
| *Qadınlar* | 1957,6 | 2101,7 | 2263,4 | 2319,3 | 2349,9 | 2381,7 | 2351,5 |
| İşsizlər, min nəfərlə | 317,8 | 258,3 | 243,7 | 251,7 | 253,8 | 251,6 | 375,9 |
| *Kişilər* | 164,1 | 102,3 | 102,6 | 106,2 | 108,0 | 107,3 | 159,9 |
| *Qadınlar* | 153,7 | 156,0 | 141,1 | 145,5 | 145,8 | 144,3 | 216,0 |
| Məşğulluq xidməti orqanlarında rəsmi işsiz statusu alan şəxslər, nəfərlə | 56343 | 38966 | 28877 | 38481 | 20088 | 81272 | ... |
| *Kişilər* | 27265 | 21979 | 17728 | 24496 | 12608 | 50625 | ... |
| *Qadınlar* | 29078 | 16987 | 11149 | 13985 | 7480 | 30647 | ... |
| İşsizliyə görə müavinat alanlar | 2087 | 87 | 1543 | 6974 | 1117 | 540 | 727 |
| *Kişilər* | 1316 | 70 | 1087 | 4748 | 668 | 283 | 467 |
| *Qadınlar* | 771 | 17 | 456 | 2226 | 449 | 257 | 260 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Əmək bazarı, 2021.

Belə ki, əmək ehtiyatlarını xarakterizə edən göstəricilərdən biri iqtisadi cəhətdən fəal əhalidir. İqtisadi cəhətdən fəal əhali məşğul və işsiz əhalinin sayını əhatə edərək, 15 yaş və daha yuxarı yaşda işləməyən, iş axtarmayan və işə başlamağa hazır olmayan

şəxslərdir. 2005-2020-ci illər ərzində iqtisadi fəal əhalinin və iqtisadiyyatda məşğul olanların ümumi sayı hər il ardıcıl olaraq müsbət tempdə artmışdır. Ölkədə 2020-ci ildə əhalinin 6473,9 min nəfəri və ya 64,1%-i əmək qabiliyyətli yaşda olan olmuşdurr. Əmək qabiliyyətli yaşda olan şəxslərin 5252,5 min nəfəri isə (81,1 faizi) iqtisadi-faəl əhali hissəsidir. 2020-ci ildə ölkədə iqtisadi-faəl əhali 872,4 min nəfər (19,9 faiz) artmışdır. BƏT metodologiyasına əsasən əsasən 2005-ci ilə diqqət yetirsək ölkədə 317,8 min nəfər işsiz mövcud olmuş, həmin dövrdə iqtisad faəl əhalinin 7,3 faizini təşkil etmişdir. Həmçinin iqtisadi fəal əhalinin 1%-ni məşğulluq xidməti orqanlarında qeydiyyatdan keçmiş işsizlər təşkil etmişdir ki, qeydiyyatdan keçənlərin sayı 56343 nəfər olmuşdur. 2005-ci illə müqayisədə 2020-ci işsizlərin sayı isə 58,1 min nəfər və ya 1,18 dəfə, iqtisadiyyatda məşğul olanların sayı 814,3 min nəfər (20,0 faiz) artmışdır. Bununla yanaşı, işsizlər arasında qadınlar çoxluq təşkil etmişdir. 2005-ci ildə BƏT metodologiyasına əsasən əsasən müəyyən edilmiş işsizlərin ümumi sayında kişilərin xüsusi çəkisi 51,6%, qadınların xüsusi çəkisi isə 48,4%, təşkil etmişdir. Baxmayaraq ki, 2020-ci ildə işsizlərin ümumi sayı 1.18 dəfə azalmış, kişilərin xüsusi çəkisi 42,5%, qadınların xüsusi çəkisi isə 57,5%, təşkil etmişdir. İqtisadi fəal əhalinin ümumi sayında kişilərin xüsusi çəkisi 2005-ci ildə 51,8%, qadınların xüsusi çəkisi isə 48,2% təşkil etmişdir. 2020-ci ildə isə müvafiq olaraq 51,1% və 48,9% olmuşdur. İşsizliyə görə müavinat alanların sayında isə kişilərin sayı yüksək olmuşdur.

**Diaqram 3: İşsizlik səviyyəsi, cins üzrə bölgüdə, faizlə**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Dayanıqlı İnkişaf Məqsədləri: statistik icmal., 2021.

Statistik məlumatlara əsasən 2005-ci illə müqayisədə 2015-ci ildə işsiz əhalinin sayı 74,1 min nəfər və ya 23,3% azalmışdır. Göstərilən dövrdə isə işsizlik səviyyəsi isə 0,6 faiz bəndi azalaraq 5% olmuşdur. 2010-2019-cu illərdə ölkə üzrə işsizlik səviyyəsində azalma müşahidə olunmuş, qeyd edilən dövrdə müsbət dinamikanın müşahidə olunması qoyulmuş hədəflərin daha uzun müddətli edilməsini və hədəflərə çatmaq üzrə fəaliyyətlərin daha geniş əhatə dairəsi üzrə icrasını zəruri etmişdir. 2020-ci ildə isə 2010-cu illə müqayisədə 5,6 faizdən 7,2 faizədək, kişilər arasında işsizlik səviyyəsi 4,4 faizdən 6,0 faizədək, qadınlar arasında isə 6,9 faizdən 8,4 faizədək yüksəlmişdir. Bu müddət ərzində ölkədə işsiz əhalinin sayı 375,9 min nəfər təşkil etmişdir. 2020-ci ildə qadınlar arasında işsizlik səviyyəsi şəhər yerlərində 10,0 faiz, kənd yerlərində 6,8 faiz, kişilər arasında işsizlik səviyyəsi şəhər yerlərində 7,2 faiz, kənd yerlərində 4,6 faiz təşkil etmişdir. Buna səbəb isə 2020-ci COVID-19 Pandemiyasının ölkədə geniş vüsət alması idi. İqtisadi rayonlar üzrə bölgüdə işsiz şəxslərin sayı ən çox Bakı şəhərində qeydə alınmışdır (Dayanıqlı İnkişaf Məqsədləri: statistik icmal., Bakı 2021).

**Diaqram 4: İşsiz şəxslərin sayı, min nəfərlə**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Dayanıqlı İnkişaf Məqsədləri: statistik icmal., 2021.

**Cədvəl 5: 2005-2020-ci illər ərzində ölkədə muzdla işləyənlərin iqtisadi faəliyyət növləri üzrə bölgüsü**

| İqtisadi fəaliyyət növləri | 2005 | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|
| *İqtisadiyyat üzrə – cəmi* | *1297.1* | *1382.9* | *1502.5* | *1525.0* | *1551.7* | *1646.6* | *1698.7* |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 45.7 | 41.2 | 46.3 | 49.4 | 51.3 | 54.2 | 61.2 |
| Mədənçıxarma sənayesi | 40.3 | 34.7 | 34.2 | 33.7 | 34.1 | 34.9 | 34.1 |
| Emal sənayesi | 104.5 | 84.8 | 94.4 | 105.1 | 109.1 | 121.9 | 127.1 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 27.9 | 30.6 | 27.1 | 27.5 | 27.5 | 30.4 | 28.3 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 23.9 | 22.2 | 25.4 | 30.8 | 41.1 | 30.2 | 29.9 |
| Tikinti | 61.7 | 79.6 | 95.3 | 101.7 | 106.2 | 119.6 | 134.0 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 250.3 | 286.8 | 284.8 | 291.7 | 287.2 | 294.5 | 312.7 |
| Nəqliyyat və anbar təsərrüfatı | 74.3 | 64.9 | 73.1 | 70.7 | 72.0 | 75.6 | 76.3 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 13.4 | 16.8 | 21.8 | 22.8 | 23.4 | 27.4 | 25.3 |
| İnformasiya və rabitə | 27.4 | 24.3 | 26.1 | 24.9 | 26.6 | 28.3 | 29.8 |
| Maliyyə və sığorta fəaliyyəti | 11.8 | 21.0 | 30.1 | 23.8 | 25.3 | 28.0 | 28.9 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 5.4 | 8.7 | 15.1 | 19.0 | 18.9 | 17.1 | 18.0 |
| Peşə, elmi və texniki fəaliyyət | 37.6 | 43.4 | 57.0 | 52.0 | 53.9 | 56.5 | 58.4 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 9.2 | 20.9 | 24.7 | 27.4 | 28.6 | 68.7 | 76.2 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 48.2 | 52.4 | 101.4 | 108.6 | 108.8 | 113.3 | 112.0 |
| Təhsil | 326.7 | 345.3 | 338.4 | 333.3 | 334.3 | 336.3 | 332.9 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 128.8 | 137.5 | 133.7 | 131.4 | 132.3 | 135.1 | 140.2 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 49.9 | 53.7 | 56.7 | 54.3 | 54.7 | 55.1 | 54.5 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 10.1 | 14.1 | 16.9 | 16.9 | 16.4 | 19.5 | 18.9 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Əmək bazarı, 2021.

2005-ci illə müqayisədə 2020-ci ilə diqqət yetiersək iqtisadiyyatda muzdla işləyənlərin sayı 401,6 min nəfər (31,0%) artmışdır. Müqayisə olunan dövrə diqqət

yetirsək iqtisadi fəaliyyət növləri üzrə bölgüdə muzdla işləyənlər içərisində ən yüksək xüsusi çəkiyə təhsil sektoru üzrə işləyənlər malik olmuş və 2005-ci ildə bütün muzdla işləyənlərin 25,2 faizini təşkil etmişdirsə, 2020-ci ildə bu rəqəm 19,6 faizə enmişdir. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində məşğul olanların isə xüsusi çəkisi 2005-ci illə müqayisədə 32,3 faizdən 2020-ci ildə 36,33 faizədək yüksəlmişdir. 2005-ci ildə ticarət, nəqliyyat vasitələrinin təmiri sektorunda çalışanların sayı bütün muzdla işləyənlərin 19,3 faizini təşkil etmişdirsə, 2020-ci ildə bu rəqəm 18,4 faizə enmişdir. Turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində çalışanların sayı müvafiq dövrdə 1,9 dəfə artmışdır. İnzibati yardımçı xidmətlərin göstərilməsi sektorunda çalışanların sayı 8,3 dəfə, daşınmaz əmlakla əlaqədar əməliyyatlar sektorunda çalışanların sayı 3,3 dəfə, tikinti sektorunda çalışanların sayı 2,8 dəfə, maliyyə və sığorta sektorunda çalışanların sayı 2,4 dəfə, dövlət idarəetməsi sosial təminat sektrounda çalışanların sayı isə 2,3 dəfə, peşə, elmi texniki fəaliyyət sektorunda çalışanların sayı 1,6 dəfə artmışdır. Mədənçıxarma və emal sənayeləri sektorlarında çalışanların sayında azalma qeydə alınmışdır.

**Cədvəl 6: 2005-2020-ci illərdə Azərbaycanda məşğul əhalinin mülkiyyət növləri üzrə bölgüsü, min nəfərlə**

| | 2005 | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|
| İqtisadiyyatda məşğul olanların sayı, min nəfərlə | 4062,3 | 4329,1 | 4671,6 | 4759,9 | 4822,1 | 4879,3 | 4938,5 | 4876,6 |
| *Mülkiyyət formaları üzrə* | | | | | | | | |
| Dövlət | 1229,8 | 1142,7 | 1176,1 | 1171,4 | 1158,4 | 1154,9 | 1156,8 | 1123,2 |
| Qeyri-dövlət | 2832,5 | 3186,4 | 3495,5 | 3588,5 | 3663,7 | 3724,4 | 3781,7 | 3753,4 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsin, Əmək bazarı., 2021.

Cədvəl 6-ya diqqət yetirsək 2005-ci ildə iqtisadiyyatda məşğul olanların 1229,8 min nəfəri (30,3 faizi) dövlət, 69,7 faizi özəl sektorda çalışmışlar. 2020-cı ildən məşğul olanların 1123,2 min nəfəri (77,0 faizi) qeyri-dövlət, 3753,4 min nəfəri (23,0 faizi) isə

dövlət sektorunda çalışmışlar. Müqayisə olunan dövrə diqqət yetirsək, məşğulluğun formaları üzrə dövlət sektorunda işləyənlərin sayı mütləq ifadədə 106,6 min nəfər (8,7 faiz) azalmışdır. Bütun bünları, qeyri-dövlət sektorunun üstünlüyünü, iqtisadiyyatın qeyr-dövlət sektoruna dövlətin göstərdiyi diqqət və qayğının nəticəsi kimi qiymətləndirə bilərik.

**Cədvəl 7: İqtisadi rayonlar üzrə məşğul əhalinin sayı, min nəfərlə**

| | **2010** | **2015** | **2017** | **2018** | **2019** | **2020** | ***Artım faizlə (2010-cu ilə nəzərən)*** |
|---|---|---|---|---|---|---|---|
| Azərbaycan Respublikası | 4329.1 | 4671.6 | 4822.1 | 4879.3 | 4938.5 | 4876.6 | *112,6* |
| Bakı şəhəri | 1055.0 | 1117.6 | 1153.6 | 1172.8 | 1190.7 | 1177.6 | *111,6* |
| Naxçıvan Muxtar Respublikası | 211.7 | 231.0 | 235.5 | 237.4 | 249.0 | 251.3 | *118,7* |
| Abşeron-Xızı iqtisadi rayonu | 256.5 | 272.4 | 279.7 | 281.8 | 283.6 | 280.1 | *109,2* |
| Dağlıq Şirvan iqtisadi rayonu | 129.0 | 145.9 | 150.3 | 151.5 | 153.2 | 150.7 | *116,8* |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 279.3 | 299.4 | 311.2 | 313.4 | 315.4 | 309.6 | *110,8* |
| Qarabağ iqtisadi rayonu | 350.8 | 379.2 | 391.4 | 394.9 | 398.2 | 392.0 | *111,7* |
| Qazax-Tovuz iqtisadi rayonu | 297.2 | 319.7 | 333.1 | 337.4 | 340.6 | 335.3 | *112,8* |
| Quba-Xaçmaz iqtisadi rayonu | 228.5 | 247.8 | 255.5 | 258.4 | 261.3 | 257.7 | *112,8* |
| Lənkəran-Astara iqtisadi rayonu | 381.0 | 416.0 | 429.5 | 435.5 | 439.3 | 434.1 | *113,9* |
| Mərkəzi Aran iqtisadi rayonu | 308.7 | 334.2 | 344.8 | 348.1 | 350.6 | 345.0 | *111,8* |
| Mil-Muğan iqtisadi rayonu | 208.3 | 227.8 | 235.2 | 239.2 | 241.5 | 239.7 | *115,1* |
| Şəki-Zaqatala iqtisadi rayonu | 276.0 | 301.0 | 310.7 | 314.7 | 317.6 | 313.6 | *113,6* |
| Şərqi Zəngəzur iqtisadi rayonu | 140.4 | 154.3 | 159.0 | 159.7 | 160.9 | 157.0 | *111,8* |
| Şirvan-Salyan iqtisadi rayonu | 206.7 | 225.3 | 232.6 | 234.5 | 236.6 | 232.9 | *112,7* |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Əmək bazarı, 2021.

2010-2020-ci illəri əhatə edən cədvəl 7-də məşğul əhalinin sayının dəyişilməsi göstərilmişdir. Bu cədvələ əsasən, son 10 il ərzində məşğul əhali sayı 12,6% artmışdır. Müqayisə olunan dövrdə iqtisadi rayonlar üzrə məşğul əhalinin sayına diqqət yetirsək,

ən çox artım Naxçıvan Muxtar Respublikasında olmuş və 39,6 min nəfər (18,7%) təşkil etmişdir. Ən az artım isə Abşeron-Xızı iqtisadi rayonunda isə 23,6 min nəfər (9,6%) müşahidə olunmuşdur. Digər maraqlı məqamlardan biri isə məşğul əhalinin artım faizi ölkənin artım faizdən çox olmuşdur ki, Dağlıq Şirvanda - 16,8%, Lənkəran-Astarada - 13,9%, Mil-Muğanda - 15,1%, olmuşdur. Qazax-Tovuz və Quba-Xaçmazda -12,8%, Şirvan-Salyanda - 12,7% təşkil edərək ölkənin artım faizinə yaxın olmuşdur. Bakı şəhərindı – 11,6%, Gəncə-Daşkəsəndə - 10,8%, Qarabağda – 11,7%, Mərkəzi Aran və Şərqi Zəngəzurda – 11,8% təşkil edərək ölkənin artım faizdən az olmuşdur.

**Diaqram 5: 2020-ci ildə iqtisadi rayonlar üzrə məşğul əhalinin sayının bütün məşğul əhalinin sayında payı, faizlə**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Əmək bazarı, 2021.

Diaqram 5-ə diqqət yetirsək, 2020-ci ildə iqtisadi rayonlar üzrə məşğul əhalinin sayının bütün məşğul əhalinin sayında payı ən çox Bakı şəhərində (24,1%), ən az isə Dağlıq Şirvan iqtisadi rayonunda (3,1%) qeydə alınmışdır.

**Cədvəl 8: İqtisadi rayonlar üzrə muzdlu işçilərin sayı, min nəfərlə**

| | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 | *Artım faizlə* |
|---|---|---|---|---|---|---|---|
| Azərbaycan Respublikası | 1382.9 | 1502.5 | 1525.0 | 1551.7 | 1646.6 | 1698.7 | *122,8* |
| Bakı şəhəri | 598.5 | 683.5 | 701.3 | 719.6 | 815.6 | 862.2 | *144,!* |
| Naxçıvan Muxtar Respublikası | 83.6 | 102.5 | 99.8 | 105.2 | 105.8 | 108.7 | *130,0* |
| Abşeron-Xızı iqtisadi rayonu | 79.8 | 79.4 | 84.4 | 85.9 | 90.9 | 94.4 | *118,3* |
| Dağlıq Şirvan iqtisadi rayonu | 26.7 | 28.0 | 28.4 | 28.3 | 28.1 | 28.1 | *105,2* |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 77.9 | 82.0 | 78.4 | 78.1 | 79.0 | 80.6 | *103,5* |
| Qarabağ iqtisadi rayonu | 67.9 | 70.7 | 68.4 | 68.7 | 69.5 | 67.7 | *99,7* |
| Qazax-Tovuz iqtisadi rayonu | 60.4 | 61.9 | 62.6 | 62.4 | 61.9 | 61.0 | *101,0* |
| Quba-Xaçmaz iqtisadi rayonu | 49.4 | 49.1 | 51.8 | 52.0 | 51.8 | 52.9 | *107,1* |
| Lənkəran-Astara iqtisadi rayonu | 67.5 | 69.7 | 70.8 | 71.4 | 70.2 | 69.7 | *103,3* |
| Mərkəzi Aran iqtisadi rayonu | 77.7 | 79.4 | 79.1 | 79.3 | 76.7 | 76.7 | *98,7* |
| Mil-Muğan iqtisadi rayonu | 44.1 | 44.3 | 47.7 | 48.3 | 46.9 | 46.4 | *105,2* |
| Şəki-Zaqatala iqtisadi rayonu | 68.8 | 72.5 | 73.4 | 75.1 | 73.0 | 72.6 | *105,5* |
| Şərqi Zəngəzur iqtisadi rayonu | 25.7 | 25.2 | 23.1 | 22.3 | 22.3 | 22.5 | *87,5* |
| Şirvan-Salyan iqtisadi rayonu | 54.9 | 54.3 | 55.8 | 55.1 | 54.9 | 55.2 | *100,5* |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Əmək bazarı, 2021.

2010-cu illə müqayisədə 2020-ci ildə Bakıda muzdlu işçilərn 43,3%-dən 50,8%-ə qalxmışdır. Müqayisə olunan dövrdə iqtisadi rayonlar üzrə muzdlu işçilərin sayına diqqət yetirsək, ən çox artım Bakı şəhərində olmuş və 263,7 min nəfər (44,1%) təşkil etmiş və muzdlu işçilərinən yüksək faizidir. Naxçıvan Muxtar Respublikasında muzdlu işləyənlərin artım faizi ölkənin artım faizdən çox olmuşdur – 30,0%. Qarabağ və Şərqi Zəmgəzur iqtisadi rayonlarında iə artım müşahudə olunmamışdır.

**Cədvəl 9: İqtisadi rayonlar üzrə 2015-2020-ci illərdə yeni açılmış iş yerləri**

| | **2015** | **2016** | **2018** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|---|
| Bakı şəhəri | 39365 | 49010 | 68714 | 62215 | 106557 | 89404 |
| Naxçıvan Muxtar Respublikası | 2908 | 3010 | 2437 | 2827 | 3220 | 955 |
| Abşeron-Xızı iqtisadi rayonu | 11180 | 11143 | 15222 | 11749 | 6945 | 3139 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 4680 | 9298 | 8052 | 5063 | 4675 | 2541 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 6710 | 16060 | 18168 | 9152 | 4861 | 4318 |
| Qarabağ iqtisadi rayonu | 9603 | 20718 | 35796 | 35135 | 12029 | 4536 |
| Qazax-Tovuz iqtisadi rayonu | 6800 | 10074 | 10689 | 9144 | 8310 | 3377 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 4693 | 9542 | 8373 | 6441 | 3963 | 1775 |
| Lənkəran-Astara iqtisadi rayonu | 7723 | 12980 | 28514 | 21232 | 11395 | 8478 |
| Mərkəzi Aran iqtisadi rayonu | 6197 | 14226 | 16388 | 8388 | 6702 | 4883 |
| Mil-Muğan iqtisadi rayonu | 5115 | 15498 | 44969 | 52747 | 12028 | 1801 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 5202 | 10576 | 9508 | 7160 | 6411 | 1989 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | 939 | 1218 | 965 | 693 | 323 | 230 |
| Şirvan-Salyan iqtisadi rayonu | 4754 | 13186 | 13651 | 7001 | 4598 | 1553 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Əmək bazarı, 2021.

Yeni açılmış iş yerlərinə gəldikdə isə qeyd olunmalıdır ki, bu məsələdə Bakı şəhəri digər bölgələri qabaqlayır (Cədvəl 9). Belə ki, artım dinamikasının ən çox paytaxt Bakıda cəmləşməsi həyata keçirilən dövlət proqramının bu sahədə yüksək inkişafı ilə bağlıdır. Yeni açılmış iş yerlərinin 69,3%-i Bakı şəhərinin, 0.7%-i isə Naxçıvan Muxtar Respublikasının, iqtisadi rayonlar üzrə bölgüyə gəldikdə 6,6%-i Lənkəran-Astara, 3,8%- Mərkəzi Aran, 3,5%-i Qarabağ, 3,3%-i Gəncə-Daşkəsən, 2,6%-i Qazax-Tovuz, 2,4%-i Abşeron-Xızı, 2,0%-i Dağlıq Şirvan, 1,5%-i Şəki-Zaqatala, 1,4%-i Quba-Xaçmaz və Mil-Muğan, 1,2%-i Şirvan Salyan, 0,2%-i Şərqi Zəngəzur iqtisadi rayonlarının payına düşür.

## 2.2. İşğaldan azad edilmiş ərazilərdə əmək ehtiyatlarının təhlili

Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 102-ci ilində ordumuzun qələbəsi ilə yekunlaşan 44 günlük İkinci Qarabağ müharibəsi işğal olunmuş ərazilərin azad olunması ilə nəticələnmişdir. Bununla bir daha aydın oldu ki, erməni cəlladları otuz ilə yaxın zamanda düşmən tapdağı altında olan torpaqlarımıza dağıntılar törətmiş, bütün infrastrukturu məhv etmiş, əmək ehtiyatları ciddi şəkildə azalmış və bunun qarşılığında isə heç bir yeni infrastruktur layihələri yaratmamışdırlar.

Qələbədən sonra artıq ölkəmiz dövlətçilik tariximizin yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Daha aydın desək, hər mərhələnin tələbinə uyğun olaraq müxtəlif idarəetmə formaları və inkişaf modeli seçilir. Belə ki, regionların sosial-iqtisadi inkişafı ilə bağlı 4 dövlət proqramı qəbul olunmuşdur ki, həmin dövlət proqramları aşağıdakı dövləri əhatə edir:

- ✓ 2004-2008;
- ✓ 2009-2013;
- ✓ 2014-2018;
- ✓ 2019-2023.

Qeyd etdiyimiz bu dövlət proqramları daha çox ölkədə sənayeləşmənin artırılması, qeyri-neft sektorunda inkişaf kimi məsələləri əhatə edirdisə, hazırki mərhələdə yeni prioritetlər yaranmışdır. Bu da indiyədək müəyyənləşdirilən strateji siyasət sayəsində əldə edilən uğurların və tarixi zəfərimizin kontekstində özünü göstərir. Hazırda həm dünyada baş verən 4-cü sənaye inqilabı kontekstində, həm yaradılan yeni reallıqlar konteksində Azərbaycan Respublikası Prezidentinin 02 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” 2030-cu ilə qədər Azərbaycanın yeni inkişaf perspektivləri müəyyənləşibki, bunlar həm milli çağırışlar, həm də qlobal çağırışlar kontekstində olduqca aktualdır.

**Sxem 4: 2030-cu ilədək sosial-iqtisadi inkişafla bağlı reallaşacaq 5 Milli Prioritet**




**Mənbə:** https://president.az/az/articles/view/50474

Müvafiq sərəncamda qeyd edilir ki, tarixi zəfərdən sonra Azərbaycan keyfiyyətcə yeni strateji mərhələyə qədəm qoymuşdur. Qeyd edilən bütün bu Milli Prioritetlərin həyata keçirilməsində məqsəd ölkənin güclü olması və inkişafı, Azərbaycan vətəndaşlarının layiqli həyat səviyyəsi, sosial rifahının gücləndirilməsidir.

Azərbaycan Respublikası Prezidenti 07 iyul 2021-ci il tarixli Fərman imzalamışdır ki, həmin fərmana əsasən iqtisadi rayonların yeni bölgüsü təsdiq olunmuşdur. Əvvəlki bölgü ilə müqayisədə yeni bölgüdə 14 iqtisadi rayon cəmlənmişdir (https://nk.gov.az/az/document/5457/).

**Cədvəl 10: İqtisadi rayonların yeni bölgüsü**

| | |
|---|---|
| Bakı iqtisadi rayonu | • Bakı şəhəri |
| Naxçıvan iqtisadi rayonu | • Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonları |
| Abşeron–Xızı iqtisadi rayonu | • Sumqayıt şəhəri, Abşeron və Xızı rayonları |
| Dağlıq Şirvan iqtisadi rayonu | • Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları |
| Gəncə–Daşkəsən iqtisadi rayonu | • Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları |
| Qarabağ iqtisadi rayonu | • Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları |
| Qazax–Tovuz iqtisadi rayonu | • Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonları |
| Quba–Xaçmaz iqtisadi rayonu | • Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayonları |
| Lənkəran–Astara iqtisadi rayonu | • Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonları |
| Mərkəzi Aran iqtisadi rayonu | • Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları |
| Mil–Muğan iqtisadi rayonu | • Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları |
| Şəki–Zaqatala iqtisadi rayonu | • Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonları |
| Şərqi Zəngəzur iqtisadi rayonu | • Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları |
| Şirvan–Salyan iqtisadi rayonu | • Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonları |

**Mənbə:** https://president.az/az/articles/view/52389

**Diaqram 6: Qarabağ iqtisadi rayonunda əhalinin sayının dəyişməsi**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycanın demoqrafik göstəriciləri., 2021.

**Diaqram 7: Şərqi Zəngəzur rayonu əhalinin sayının dəyişməsi**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycanın demoqrafik göstəriciləri., 2021.

Diaqram 6 və 7-yə hər iki iqtisadi rayonun qeydiyyatda olan əhalinin sayına diqqət yetirsək son 20 ildə artım tendensiyasını müşahidə edəcəyik. Qarabağ iqtisadi rayonunda qeydiyyatda olan əhalinin sayı 1991-ci ildə 675,2 min nəfər idisə, 2021-ci

ildə artıq bu rəqəm 904,5 min nəfərədək yüksəlmişdir. Şərqi Zəngəzur iqtisadi rayonunda da 1991-ci ildə 675,2 min nəfər idisə, 2021-ci ildə isə 904,5 min nəfərədək yüksəlmişdir. I Qarabağ müharibəsi zamanı ölkəmizə ağır itkilər üz vermişdir. İşğaldan sonrakı dövrlərdə öz ərazilərindən didərgin düşən, qaçqın və köçkün adı altında yaşayan vətəndaşlarımızın problemləri ölkənin ən vacib problemlərindən birinə çevrilmişdir.

**Cədvəl 11: Qarabağ iqtisadi rayonunda iqtisadi fəal əhalinin sayı, min nəfərlə**

| | **2010** | **2015** | **2017** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|---|
| **Qarabağ iqtisadi rayonu** | **399.1** | **406.8** | **411.3** | **415.1** | **418.0** | **422.0** |
| Xankəndi | - | - | - | - | - | - |
| Ağcabədi | 62.6 | 63.9 | 64.7 | 65.3 | 65.7 | 66.1 |
| Ağdam | 95.1 | 96.9 | 98.1 | 98.4 | 99.0 | 100.1 |
| Bərdə | 75.6 | 77.0 | 77.8 | 79.2 | 79.8 | 80.7 |
| Füzuli | 61.4 | 62.6 | 63.3 | 64.0 | 64.4 | 65.1 |
| Xocalı | 14.7 | 14.9 | 15.0 | 15.1 | 15.3 | 15.4 |
| Xocavənd | 22.8 | 23.3 | 23.5 | 23.5 | 23.7 | 23.9 |
| Şuşa | 16.6 | 16.9 | 17.1 | 17.2 | 17.4 | 17.4 |
| Tərtər | 50,3 | 51,3 | 51,8 | 52,4 | 52,7 | 53,3 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Əmək bazarı, 2021.

**Cədvəl 12: Şərqi Zəngəzur iqtisadi rayonunda iqtisadi fəal əhalinin sayı, min nəfərlə**

| | **2010** | **2015** | **2017** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|---|
| **Şərqi Zəngəzur iqtisadi rayonu** | **164.2** | **167.5** | **169.3** | **170.5** | **171.6** | **172.8** |
| Cəbrayıl | 38.3 | 39.1 | 39.6 | 39.9 | 40.2 | 40.5 |
| Kəlbəcər | 44.6 | 45.5 | 45.9 | 46.3 | 46.5 | 47.2 |
| Qubadlı | 20.3 | 20.7 | 20.8 | 21.0 | 21.2 | 21.2 |
| Laçın | 38.2 | 39.0 | 39.3 | 39.6 | 39.8 | 40.0 |
| Zəngilan | 22.8 | 23.2 | 23.7 | 23.7 | 23.9 | 23.9 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Əmək bazarı, 2021.

Belə ki, əmək ehtiyatlarını xarakterizə edən göstəricilərdən biri iqtisadi cəhətdən fəal əhalidir. İqtisadi cəhətdən fəal əhali məşğul və işsiz əhalinin sayını əhatə edərək, 15 yaş və daha yuxarı yaşda işləməyən, iş axtarmayan və işə başlamağa hazır olmayan şəxslərdir. Son 10 il ərzində hər iki iqtisadi rayonda iqtisadi fəal əhalinin ümumi sayı hər il ardıcıl olaraq müsbət tempdə artmışdır. Ölkədə 2020-ci ildə 5252,5 min nəfər iqtisadi fəal əhalinin 8,03 faizi Qarabağ iqtisadi rayonunda, 3,3 faizi isə Şərqi Zəngəzur iqtisadi rayonunda cəmlənmişdir. 2020-ci il ərzində Qarabağ iqtisadi rayonunda iqtisadi fəal əhalinin sayının ən az artdığı bölgə Xocalı rayonu olaraq, 0,7 min nəfər (4.76%), ən çox isə Bərdə rayonunda 5,1 min nəfər (6,75%) təşkil etmişir. 2020-ci il ərzində Şərqi Zəngəzur iqtisadi rayonunda iqtisadi fəal əhalinin sayının ən az artdığı bölgə Qubadlı rayonu olaraq, 0,9 min nəfər (4,43%), ən çox isə Kəlbəcər rayonunda 2,6 min nəfər (5,83%) təşkil etmişir.

**Cədvəl 13: Qarabağ iqtisadi rayonunda məşğul əhalinin sayı, min nəfərlə**

| | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| Xankəndi | - | - | - | - | - | - |
| Ağcabədi | 55,5 | 60,0 | 62,1 | 62,7 | 63,2 | 62,0 |
| Ağdam | 84,8 | 90,1 | 93,0 | 93,4 | 94,1 | 92,7 |
| Bərdə | 67,9 | 71,9 | 74,2 | 75,6 | 76,3 | 75,5 |
| Füzuli | 53,7 | 58,0 | 59,9 | 60,6 | 61,1 | 60,2 |
| Xocalı | 11,8 | 13,9 | 14,2 | 14,2 | 14,4 | 14,0 |
| Xocavənd | 19,2 | 21,6 | 22,3 | 22,3 | 22,5 | 22,1 |
| Şuşa | 13,5 | 15,6 | 16,1 | 16,1 | 16,3 | 15,8 |
| Tərtər | 44,4 | 48,1 | 49,6 | 50,0 | 50,3 | 49,7 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Əmək bazarı, 2021.

2010-cu illə müqayisədə 2020-ci ildə məşğul əhalinin sayı Ağcabədi rayonunda 55,5 min nəfərdən 62,0 nəfərə, müvafiq olaraq Ağdam rayonunda 84,8 min nəfərdən 92,7 min nəfərə, Bərdə ryaonunda 67,9 min nəfərdən 75,5 min nəfərə, Füzuli rayonunda 53,7 min nəfərdən 60,2 min nəfərə, Xocalı rayonunda 11,8 min nəfərdən 14,0 min nəfərə, Xocavənd rayonunda 19,2 min nəfərdən 22,1 min nəfərə, Şuşa rayonunda 13,5 min nəfərdən 15,8 min nəfərə, Tərtər rayonunda 44,4 min nəfərdən 49,7 min nəfərə yüksəlmişdir.

**Cədvəl 14: Şərqi Zəngəzur iqtisadi rayonunda məşğul əhalinin sayı, min nəfərlə**

| | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| Cəbrayıl | 33,2 | 36,1 | 37,2 | 37,5 | 37,8 | 36,9 |
| Kəlbəcər | 37,9 | 41,9 | 43,2 | 43,4 | 43,7 | 42,9 |
| Qubadlı | 17,6 | 19,1 | 19,6 | 19,7 | 19,9 | 19,3 |
| Laçın | 32,5 | 35,7 | 36,8 | 36,9 | 37,1 | 36,2 |
| Zəngilan | 19,2 | 21,5 | 22,2 | 22,2 | 22,4 | 21,7 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Əmək bazarı, 2021.

2010-cu illə müqayisədə 2020-ci ildə məşğul əhalinin sayı Cəbrayıl rayonunda 33,2 min nəfərdən 36,9 min nəfərə, müvafiq olaraq Kəlbəcər rayonunda 37,9 min nəfərdən 42,9 min nəfərə, Qubadlı rayonunda 17,6 min nəfərdən 19,3 min nəfərə, Laçın rayonunda 32,5 min nəfərdən 36,2 min nəfərə, Zəngilan rayonunda 19,2 min nəfərdən 21,7 min nəfərə yüksəlmişdir.

**Diaqram 8: Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarında işsiz statusu verilmiş şəxslərin sayı, nəfərlə**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Əmək bazarı, 2021.
Qeyd: 2020-ci ilin göstəriciləri yoxdur.

2019-cu ildə Qarabağ iqtisadi rayonunda işsiz statusu verilmiş şəxslərin sayı ən çox Ağdam rayonunda, ən az isə Ağcabədi rayonunda qeydə alınmışdır.

Dövlətin müəyyənləşdirdiyi sosial-iqtisadi siyasətin əsas sütunlarından biri də yeni iş yerlərinin yaradılmasıdır ki, bu da məşğulluğunun təmin olunması yolu ilə işsiz statusu almış şəxslərin işlə təmin edilməsində mühüm rol oynayır.

Məlumdur ki, Azərbaycanın Qarabağ bölgəsində sənaye müəssisəslərinin az olması, oradakı bulaqların və torpağının saflığı, təmizliyi orada kənd təsərrüfatının müxtəlif sahlərəri üzrə inkişafı təmin etməyə əsas verir. Qeyd edilən potensialın mövcudluğu öz növbəsində Qarabağ torpaqlarında yetişən meyvə və tərəvəzlərdən istifadə edilməklə istehsal olunan ekoloji təmiz qida məhsullarının xarici ölkə bazarlarına çıxarılması yolu həm iqtisadi rayon üzrə, həm də ölkə iqtisadiyyatının inkişafına kifayət qədər müsbət təsir göstərəcəkdir. Qarabağ bölgəsinin iqtiasdi potensialı müəyyənləşdirilərkən, qeyd etmək yerində olardı ki, münbit torpaqlara malik ərazilərdə kənd təsərrüfatının maldarlığın, əkinçiliyin inkişafı üçün əlverişli şərait vardır (http://www.anl.az/down/meqale/xalqqazeti/2020/dekabr/729567(meqale).pdf).

İşğaldan azad edilmiş rayonların işğala qədərki dövrdə iqtisadiyyatının əsas istiqamətləri aşağıdakı kimi olmuşdur:

✓ *Füzuli rayonu*

Bu rayonun iqtisadiyyatının əsasını suvarma sistemləri ilə zəngin olan kənd təsərrüfatı təşkil etmişdir. Burada kənd təsərrüfatı sahələrinə taxılçılıq, üzümçülük, heyvandarlıq, quşçuluq və baramaçılıq daxildir. İşğal ərəfəsində qaramal-kökəltmə və qoyunçuluq kompleksləri fəaliyyət göstərmişdir.

Sənayedə kənd təsərrüfatı məhsullarının emalı mühüm yer tutmuşdur. Pambıqtəmizləmə, yağ-pendir məmulatları, dəmir-beton məhsulları zavodları, bir neçə üzüm emalı zavodu, toxuculuq fabriki, daş karxanaları fəaliyyət göstərmişdir.

✓ *Cəbrayıl rayonu*

Bu rayonun iqtisadiyyatı əsasən kənd təsərrüfatı (üzümçülük, tütünçülük, heyvandarlıq və taxılçılıq) sahəsi üzərində formalaşmışdır. İşğala qədər bu rayonda qaramal-kökəltmə, quşçuluq və baramaçılıq kimi təsərrüfatları fəaliyyət göstərmişdir.
Sənayedə xalçaçılıq mühüm yer tutmuş, üzüm emalı zavodu, çörək zavodları, kənd təsərrüfatı texnikasının təmiri üzrə müəssisələr yerli əhalinin məşğulluğunun təmin edilməsində mühüm rol oynamışdır.

✓ *Zəngilan rayonu*

Digər rayonlar kimi bu rayonun da iqtisadiyyatının formalaçmasında əsas yeri kənd təsərrüfatı (heyvandarlıq, üzümçülük,tütünçülük, və taxılçılıq) tutmuşdur. Bu rayonun coğrafi mövqeyi burada eyni zamanda turizmin inkişafı üçün böyük potensialın olduğunu əks etdirir

✓ *Qubadlı rayonu*

İqtisadiyyatının əsasını kənd təsərrüfatı (taxılçılıq, heyvandarlıq, tütünçülük, baramaçılıq və üzümçülük) təşkil etmişdir. 27-si tam mexanikləşdirilmiş olmaqla 31süd-əmtəə fermasının mövcud olması xüsusi qeyd edilə bilər.
İşğal ərəfəsindəki son illərdə sənaye sürətli inkişaf yolunda olmuşdur.
Rayonda 2 ilkin üzüm emalı zavodu, yağ-süd və asfalt zavodları, inkubator-quşçuluq fabriki, balıqyetişdirmə vətəgəsi, daş karxanası, mərmər sexi fəaliyyət göstərmiş, "Neftqazavtomat" təcrübə zavodunun Qubadlı filialının tikintisi tamamlanmaq üzrə olmuşdur.

✓ *Laçın rayonu*

Bu rayonun iqtisadiyyatında daha çox heyvandarlıq, əkinçilikdə isə taxılçılıq vəmaldarlıq üçün yem istehsalı fərqlənmişdir. Kənd təsərrüfatı xammalının emalıüzrə müəssisələr arasında yağ-pendir və çörək kombinatları, süd zavodu mühüm yer tutmuşdur. Burada sənayenin inkişafına əsasən 1970-ci illərdən başlayaraq nail olunmuşdur.

İşğala qədərki dövrdə rayonda afsalt-beton zavodu, daş karxanaları, toxuculuq sexləri, mərmər emalı müəssisələri, alüminium və maşınqayırma zavodlarının

filiallaları, məişət xidməti kombinatı – cəmi 23 inşaat və 16 sənaye müəssisəsi fəaliyyət göstərmişdir. Rayon yaxşı qurulmuş meşə təsərrüfatına malik olmuşdur. Dağ, müalicə və ov turizminin inkişafı üçün böyük potensialı vardır

✓ *Kəlbəcər rayonu*

Kəlbəcər rayonu digər qonşu rayonlar kimi kənd təsərrüfatı üzrə ixtisaslaşmış rayonlardan biri olmuşdur. Burada kənd təsərrüfatında heyvandarlıq və tütünçülük, sənayedə – mineral suistehsalı, xidmət sektorunda – kurort təsərrüfatı üstünlük təşkil etmişdir.Rayon yaxşı qurulmuş meşə təsərrüfatına malik olmuşdur. Dağ, müalicə və ov turizminin inkişafı üçün böyük potensialı vardır *(N.Müzəffərli, E.İsmayılov, Azərbaycanın post-konflikt ərazilərinin bərpası: Konseptual əsaslar, Qafqaz, Bakı 2010).*

Onu da qeyd etmək gərəkdir ki, Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi zonasının enerji potensialı çox yüksəkdir. Hidroenerji potensialı baxımından "Xudafərin", "Qız Qalası" su elektrik stansiyaları və "Tərtər" SES-i nümunə göstərmək olar. Həmçinin, Füzuli, Cəbrayıl və Zəngilan rayonlarında günəş enerji potensialı, Qarabağın dağlıq hissələri, əsasda Kəlbəcər və Laçın rayonlarında külək enerji potensialı, geotermal enerji resurslarımız isə Kəlbəcər və Şuşada geniş yayılıb (İşğaldan azad olunmuş ərazilərin post-konflikt dövründə bərpa prosesi: İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi).

Ümumiyyətlə gələcəkdə işğaldan azad edilmiş rayonlarda iqtisadiyyatın yenidən formalaşdırılması bir neçə təməl prinsiplər üzərində həyata keçirilə bilər. Belə ki, ilkin olaraq, regionun iqtisadi dirçəlişi prosesinin əsasını dövlətin uzunmüddətli strateji iqtisadi hədəfləri təşkil etməlidir.

İkincisi, istər post-konflikt rayonlarında iqtisadiyyatın bərpası (yeniiqtisadiyyat qurulması) prosesinin özü, istərsə də istehsal müəssisələrinin reabilitasiyanın birinci fazasından sonrakı fəaliyyəti, ilk növbədə yerli resurslardan istifadəyə fokuslanmalıdır (N.Müzəfferli, E.İsmayılov, Azərbaycanın post-konflikt ərazilərinin bərpası: Konseptual əsaslar, Qafqaz, Bakı 2010).

Sahəvi yanaşma baxımından, bunların arasında kənd təsərrüfatı resursları və turizmin inkişafına şərait yaradan resurslar xüsusi fərqləndirilməlidir. İstər istehsal müəssisələri şəbəkəsinin, istərsə də bütün digər təsisatların, o cümlədən infrastruktur obyektlərinin bərpasısı üzrə işlər planlaşdırılarkən ilkin olaraq, işçi qüvvəsinin repatriantlar arasındanseçilib cəlb olunması imkanları araşdırılmalıdır. Təbii ki, söhbət yalnız, sıravi işçilərdən deyil, həm də idarəedici heyətdən gedir. Hətta ixtisas səviyyəsinin artırılmasından və ya yeni ixtisaslara yiyələnməkdən ötrü əlavə xərclər tələb olunduqda belə repatriantlar konfliktsonrası bərpa işlərinə birinci növbədə cəlb edilməlidir (N.Müzəffərli, E.İsmayılov, Azərbaycanın post-konflikt ərazilərinin bərpası: Konseptual əsaslar, Qafqaz, Bakı 2010).

Azad edilmiş ərazilərdə məğulluğun təmin edilməsi eyni zamanda insanların həmin ərazilərdə yaradılacaq itisadi fəaliyyət istiqamətlərində işləmək məqsədilə müvvəqqəti deyil, daimi yaşamasını stimullaşdırmalıdır. Belə ki, bu məsələdə qeyd edilən ərazilərdə tarixən yaşamış, lakin erməni təcavüzü zamanı öz evlərini məcburiyyət qarşısında qalmaql tərk etmiş məcburi köçkünlər xüsusi diqqət mərkəzində olmalıdır. Başqa sözlə, bu ərazilərdə məşğulluq siyasətinin həyata keçirilməsinə repatriasiyanın təşkilindən başlanılmalıdır (N.Müzəffərli, E.İsmayılov, Azərbaycanın post-konflikt ərazilərinin bərpası: Konseptual əsaslar, Qafqaz, Bakı 2010).

Qaçqın və məcburi köçkünlərin işğaldan azad edilmiş rayonlara qayıtması və orada yenidən məskunlaşması, təbii ki, konfliktsonrası reabilitasiyanınən mühüm tərkib hissələrindən biridir və hətta onun onurğa sütunu adlandırılabilər. Repatriasiya azad edilmiş ərazilərin sosial-iqtisadi dirçəlişində bir növ istinad nöqtəsidir, çünki əgər bölgənin öz əhalisionun normal həyata qaytarılmasında bilavasitə iştirak etmirsə, tamhəcmli və mükəmməl reabilitasiya, demək olar ki, qeyri-mümkündür (N.Müzəffərli, E.İsmayılov, Azərbaycanın post-konflikt ərazilərinin bərpası: Konseptual əsaslar, Qafqaz, Bakı 2010).

Digər tərəfdən repatriasiyanın nə dərəcədə uğurla getməsi, həm də,konfliktsonrası reabilitasiya işlərinin gedişinə və nəticələrinə insanların verdiyi

qiymət kimi də qəbul edilməklə təməl infrastruktur və iqtisadiyyatın formalamasına xidmət edəcək layihələrin səmərəliliyinin göstəricisidir (N.Müzəffərli, E.İsmayılov, Azərbaycanın post-konflikt ərazilərinin bərpası: Konseptual əsaslar”, Qafqaz, Bakı 2010).

Beynəlxalq təcrübəyə əsasən post-konflikt investisiya qoyuluşunda diaspora investisiyalarının cəlb edilməsi üçün olan motivlər 3 qrupa bölünür. Belə ki, bu motivlər maliyyə gəlirliyi və sosial status maraqları ilə yanaşı, emosional bağlarından da istifadə edərəkdən investisiyaları cəlb etmək mümkündür.

- Maliyyə gəliri motivi – qoyulan investisiyadan əldə olunacaq gəlir nəzərdə tutulur.
- Sosial status motivi – cəlb olunacaq investora veriləbiləcək sosial statusdan gedir.
- Emosional motiv – ən çox etnik konfiliklər zamanı cəlb oluna biləcək motiv kimi nəzərdə tutulur və investorun dəyərlərə və ölkəyə verəcəyi töhfədən mənəvi həzz almasından irəli gələrəkdən edilən investisiyadır (L.Riddle, G.A.Hrivnak, T.M.Nieslsen, (2010), Transnational diaspora entrepreneurship in emerging markets: Bridging institutional divides).

Bölgədə iqtisadiyyatın inkişafı üçün ilkin olaraq kənd təsərrüfatı müəssisələrinə, fermer təsərrüfatlarına dövlət maliyyə dəstəyi verilməli, müvafiq lokal proqramlar hazırlanmalı, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün işlək mexanizmlər qurularaq tətbiq edilməlidir.

Qeyd edilən proqramlardan biri kimi kiçik təsərrüfat subyektlərinin formalaşmasında rol oynayan özünüməşğulluq proqramlarını qeyd etmək olar. Belə ki, 2016-2017-ci illərdə özünüməşğulluğa 1281 nəfər, 2018-ci ildə 2718 nəfər cəlb olunduğu halda, 2019-cu il bu tədbirlərin əhatə dairəsi genişləndirilərək 10350 nəfərin, 2020-ci ildə isə əlavə olaraq 10600 nəfərin, cari ilin I yarısında 1565 nəfərin, 2020-ci ilədək özünüməşğulluğun əhatə dairəsini 6 dəfə artırmağa nail olunmasa da**,** ümumilikdə 26514 nəfərin özünüməşğulluğu təmin olunmuşdur. İlin sonuna 10270 nəfərin özünüməşğulluğunun təmin olunması gözlənilir (Diaqram 9).

**Diaqram 9: Özünüməşğulluq tədbirləri ilə əhatə olunmuş şəxslərin sayı haqqında məlumat, nəfərlə**




**Mənbə:** İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının rəyi

Onların 24037 nəfəri və ya 90,7%-i iqtisadiyyatın kənd təsərrüfatı, 1733 nəfəri və ya 6,5%-i xidmət, 744 nəfəri və ya 2,8%-i istehsal sahəsi üzrə özünüməşğulluq tədbirlərinə cəlb edilmişdir (Diaqram 10). Təqdim olunmuş məlumata əsasən iqtisadiyyatın istehsal və xidmət sahələrində özünüməşğulluq tədbirlərinə cəlb olunmuş şəxslərin 1519 nəfəri və ya 61,3%-i Bakı, Sumqayıt və Gəncə şəhərlərində yaşayır.

**Diaqram 10: İqtisadiyyatın sahələri üzrə özünüməşğulluq tədbirlərinə cəlb olunanlar haqqında məlumat, nəfərlə**




**Mənbə:** İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının rəyi

Dissertasiya işi üzrə araşdırma apararkən “Google Forms” platforması üzərindən olmaqla anket sorğu metodundan da istifadə edilmişdir. Sorğuda iştirak etmiş respondentlərin sayı 309 nəfər olmuşdur ki, bunlardan 279 nəfəri təqdim olunan bütün sualları cavablandırmışdır.

**Diaqram 11: Sorğuda iştirak etmiş şəxslərin yaş kateqoriyalarına görə bölgüsü, faizlə**




**Mənbə:** Sorğudan əldə olunan nəticələr əsasında müəllifin hesablamaları

Belə ki, diaqram 11-dən göründüyü kimi sorğuda iştirak edənlərin 77,3%-i 35 yaşadək, 13,4%-i 35-50 yaş, 5,2%-i 50-5 yaş, 4,1%-ni isə 65 yaşdan yuxarı şəxslərdən ibarət olmuşdur.

**Diaqram 12: Yeni yaradılacaq iş yerlərində işlə təmin olunmaya dair razılıq üzrə şərtlərin müəyyənləşdirilməsi məqsədilə keçirilmiş sorğunun nəticəsi**




**Mənbə:** Sorğudan əldə olunan nəticələr əsasında müəllifin hesablamaları

Bu sualın təqdim edilməsində əsas məqsəd iştirakçıların işğaldan azad edilmiş ərazilərdə yeni yaradılacaq iş yerləri üzrə gözləntiləri ilə bağlı fikirlərinin, eləcə də həmin ərazilərdə işləməkdə maraqlı olub-olmadıqlarının müəyyənləşdirilməsi olmuşdur. Bu sualın cavablandırılmasında ümumilikdə 294 nəfər iştirak etmişdir.

Diaqram 12-yə əsasən sorğuda iştirak etmiş şəxslərin 35,7%-i yaşayış yeri ilə təmin ediləcəyi halda, 25,5%-i əməkhaqqı məbləğinin 800 manatdan çox olacağı halda, 15,3%-i dövlət tərəfindən sosial və vergi güzəştlərinin ediləcəyi halda həmin ərazilərdə yaradılacaq iş yerlərində işləməkdə maraqlı olduğunu, 23,5%-i isə ümumiyyətlə həmin ərazilərdə işləmək istəmədiyini bildirmişdir.

Göründüyü kimi sorğuda iştirak etmiş şəxslərin əsas hissəsini daha məhsuldar və effektiv əmək ehtiyatı kimi qiymətləndirilə bilən gənclərin təşkil etməsi və bunların da çoxunun işlə təmin olunarkən daha çox yaşayış yeri ilə təmin edilmə faktorlarının qeyd etməsi yaradılacaq infrastrukturun yalnız iş yerləri üzrə deyil, yaşayış yerlərini də əhatə etməsini zəruri edir.

**Diaqram 13: İştirakçıların hansı iqtisadi sahələrdə işləməkdə maraqlı olmalarına dair keçirilmiş sorğunun nəticəsi**




**Mənbə:** Sorğudan əldə olunan nəticələr əsasında müəllifin hesablamaları

Sorğuda iştirakçılara təqdim edilmiş 3-cü sual region üzrə olmaqla yeni yaradılacaq hansı iqtisadi sahələrdə işləməkdə maraqlı olduqlarını müəyyənləşdirmə xarakteri daşımışdır. Belə ki, iştirakçıların 52,7%-i turizm, 28%-i sənaye, 12,9%-i fərqi yoxdur, 6,5%-i isə kənd təsərrüfatı (əkinçilik, maladarlıqvə s.) cavabını seçmişdir (Diaqram 13).

Hazırda işğaldan azad edilmiş ərazilərin relyefi əsasən turizm və kənd təsərrüfatı kimi iqtisadi sahələr üçün daha effektivdir. Lakin iştirakçıların aşağı hissəsinin kənd təssərrüfatını seçməsi bu sahə üzrə güzəştli və uzunmüddətli iqtisadi proqramların işlənib hazırlanmasını və bu proqramalrın daha çox həmin ərazilərdə daimi yaşayacaq şəxslərə münasibətdə təqdim edilməsini zəruri edir.

**Diaqram 14: İştirakçıların muzdla işləməkdə, yaxud sahibkar olaraq fəaliyyət göstərməkdə maraqlı olmalarının müəyyənləşdirilməsi üzrə keçirilmiş sorğunun nəticəsi**




**Mənbə:** Sorğudan əldə olunan nəticələr əsasında müəllifin hesablamaları

Sonuncu sualın təqdim edilməsində əsas məqsəd iştirakçıların muzdlu fəaliyyətlə və ya sahibkarlıq fəaliyyəti ilə məşğul olmaqda maraqlı olmalarını müəyyənləşdirmək olmuşdur. Burada onlara 2 sual (işğaldan azad edilmiş ərazilərdə hər hansı bir

sahibkara məxsus iş yerində işləmək və ya öz biznesinizi yaratmaq istərdiniz ) təqdim edilmişdir. Belə ki, bu sualda iştirakçıların 61,5%-i sahibkara məxsus iş yerində işləmək, 38,5%-i isə öz biznesini yaratmaq variantalarını qeyd etmişdir (Diaqram 14).

# III FƏSİL. ƏMƏK EHTİYATLARINDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİ MEXANİZMLƏRİNİN TƏHLİLİ

## 3.1. Əmək ehtiyatlarından istifadə mexanizmləri

Əmək bazarının inkişafı və əmək ehtiyatlarından səmərəli istifadə edilməsi ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin istiqamətlərindən biridir. Belə ki, məşğulluğun təmin edilməsi üçün yeni iş yerləri açılmış, müəssisələr, təşkilatlar və digər obyektlər yaradılmışdır. Qəbul olunmuş regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında qeyd olunmuş tədbirlər müvəffəqiyyətlə yerinə yetirilmişdir.

İnkişaf etməkdə olan ölkənin sürətli və sabit inkişaf məqsədinə çatması onun resurslarından tam və səmərəli istifadə etməsindən asılıdır. Resursların əksəriyyətinin istehsalda daha səmərəli iştirakı ilə milli məhsulun ildən-ilə daha böyük artımına nail olmaq olar. Məqsəd iqtisadiyyatda maddi istehsal vasitələrini, rifahı yüksəltməkdir. Bununla paralel olaraq əməyin istifadəsi üzrə xüsusiyyətlər də nəzərə alınmalıdır. Eyni zamanda əmək istehsal amili kimi iqtisadi və sosial hadisələrin əsas elementi olan insandan ayrı nəzərdən keçirilə bilməz. Əmək faktorunun tam məşğul olmaması öz əməyi ilə yaşayanlara birbaşa təsir edir və onları gəlirsiz qoyur. Məşğul olmaq bir çox məqamlarda işçi qüvvəsinə müsbət töhfələr verir. Psixoloji, fizioloji və iqtisadi nəticələri olan məşğulluğun bəlkə də ən mühüm töhfəsi rifahın əldə edilməsini təmin etməkdir. Məşğul olmaq təkcə işləyən şəxs üçün deyil, həm də ev təsərrüfatı üçün müsbət nəticələr verir. Azərbaycanda əmək bazarında məşğulluğun ümumi görünüşünün qiymətləndirilməsi iqtisadiyyatın dinamikasının əmək bazarına əksini göstərmək baxımından əhəmiyyətlidir.

Məşğulluq səviyyəsi işçi qüvvəsinin iqtisadi fəaliyyətlərdə nə dərəcədə iştirak edə biləcəyini göstərmək baxımından əhəmiyyətlidir. İqtisadiyyat tam məşğulluq vəziyyətində olduqda, bu resursların tam istifadə edildiyi deməkdir. Əmək bazarında tam məşğulluq statusu işçi qüvvəsində olan bütün insanların işlə təmin oluna biləcəyi vəziyyətə aiddir. Məqsədli olaraq tam məşğulluğa çatmaq üçün bu istiqamətdə iqtisadi

siyasətlər aparılmalı və işçi qüvvəsinin keyfiyyət və bacarıq səviyyəsinə uyğun istehsal mexanizmləri qurulmalıdır (Yıldız Teknik Üniversitesi, Yüksek lisans tezisi, Verimlilik artırma teknikleri., İstanbul 2007).

Digər ölkələrdə olduğu kimi Azərbaycanda da əhalinin məşğulluğunun təmin edilməsi dövlətin müəyyənləşdirdiyi əsas strateji hədəflərdən olmuşdur. Belə ki, ölkədə məşğulluqla bağlı bir sıra dövlət proqramları qəbul edilmişdir.

**Sxem 5: 2007-2010-cu illəri əhatə edən dövlət proqramından gözlənilən nəticələr**

səmərəli məşğulluq siyasətinin həyata keçirilməsinə dair əlverişli şərait yaradılacaq;

məşğulluq sahəsində qanunvericilik bazası təkmilləşdiriləcək;

əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşdırılması, onun rəqabət gücünün artırılması və iqtisadi fəallığın yüksəldilməsi üçün əlverişli şərait yaradılacaq, kadr hazırlığı sisteminin, o cümlədən peşə hazırlığı və ixtisasartırma şəbəkəsinin fəaliyyəti dinamik inkişaf edən əmək bazarının tələblərinə uyğunlaşdırılacaq;

regionlar üzrə əmək bazarının inkişafına yönəldilmiş institusional mühit formalaşacaq;

işsizlik səviyyəsi azaldılacaq;

işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsi gücləndiriləcək

**Mənbə:** https://e-qanun.az/framework/13340

2007-2010-cu illəri əhatə edən Məşğulluq Strategiyası ilə bağlı dövlət proqramında dair əhalinin məşğulluğunun yüksəldilməsi, yoxsulluğun minimum səviyyəyə endirilməsi, əhalinin sosial rifah halının yaxşılaşdırılması istiqamətində tədbirlər reallaşdırılmışdır. Belə ki, 01.10.2003-cü il tarixindən 01.01.2011-ci il tarixinədək ölkədə 912 mindən artıq yeni iş yeri, o cümlədən 654 mindən çox isə daimi iş yeri açılmışdır. Açılmış yeni iş yerlərinin 79,1%-i bölgələrdə, 87,0%-i özəl sektorda yaradılmışdır.

**Sxem 6: Məşğulluq Strategiyası (2011-2015) ilə bağlı dövlət proqramından gözlənilən nəticələr**

səmərəli məşğulluq siyasətinin həyata keçirilməsi üçün əlverişli şəraitin yaradılması;

əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşdırılması və iqtisadi fəallığın yüksəldilməsi üçün əlverişli şərait yaradılması, kadr hazırlığı sisteminin, o cümlədən peşə hazırlığı və əlavə təhsil şəbəkəsinin fəaliyyətinin dinamik inkişaf edən əmək bazarının tələblərinə uyğunlaşdırılması;

işaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsi;

əmək bazarında tələb və təklif arasında dinamik uyğunluğun gücləndirilməsinə yönəldilmiş institusional mühitin təkmilləşdirilməsi;

yüksək beynəlxalq standartlara uyğun işgüzarlıq mühitinin formalaşdırılması;

struktur islahatların dərinləşdirilməsi, investisiya fəallığının artırılması;

insan kapitalının yüksək inkişaf səviyyəsinin təmin edilməsi.

**Mənbə:** https://e-qanun.az/framework/22533

Məşğulluq Strategiyası (2011-2015) ilə bağlı dövlət proqramında əhalinin rifah halının yaxşılaşdırılması, işsizliyi minimum səviyyəyə endirmək, işaxtaranların işə düzəlməkdə sosial muadifəsinin yaxşılaşdırılması, əmək ehtyiatlarından istifadə, əmək bazarında rəqabətqabiliyyətliliyin artırılması istiqamətində tədbirlər reallaşdırılmışdır.

**Sxem 7: 2006-2015-ci illəri əhatə edən Məşğulluq Strategiyası ilə bağlı dövlət proqramının nəticələri**

| | |
|---|---|
| İşsizlik səviyyəsi | 7,3 faizdən 5,0 faizədək azalmışdır. |
| Yoxsulluq səviyyəsi | 29,3 faizsən 4,9 faizədək azalmışdır. |
| Əhalinin gəlirləri | 5,2 dəfə artmışdır. |
| Minimum əməkhaqqı | 3,5 dəfə artmışdır. |
| Orta aylıq nominal əməkhaqqı | 3,8 dəfə artmışdır. |

**Mənbə:** https://e-qanun.az/framework/40416

**Sxem 8: Məşğulluq Strategiyasının məqsədləri (2019-2030)**

**Məşğulluq Strategiyasının 4 məqsədi vardır**

- İş yerləri yaratmaqla, həmçinin əmək tutumlu sahələrə pul qoyaraq yeni iş yerlər açmaqla, köhnələri inkişaf etdirilməklə işsizliyi və yarım-məşğuliyyəti azaltmaq;
- İş yerləri yarada biləcək sahibkarlıq mühitinin inkişafını təmin edən mühitin formalaşdırılması;
- İş axtaranla (əmək təklifi) işəgötürənin (əməyə tələbi) bir-birindən razı qalmasını, qazan-qazan prinsiplə işləməsinə nail olmaq;
- Azərbaycanda nəzərdə tutulan məşğulluqla bağlı strategiyaları reallaşdırmaq.

**Mənbə:** https://e-qanun.az/framework/40416

Ən son qəbul olunmuş məşğulluqla bağlı dövlət proqramı 2019-2030-cu illəri edir. Belə ki, 4 məqsəddən belə nəticə çıxartmaq olar: əhalinin təhsil, bilik, bacarıqlarından irəli gələrək onların, elmin inkişafına şərait yaradan, yaşayış səviyyəsini təmin edən müəyyən əmək haqqı qarşılığında əmək fəaliyyətində çalışmalarını təmin etmək.

**Sxem 9: Məşğulluq Strategiyasından əldə olunması təmin ediləcək nəticələr (2019-2030)**

- əmək bazarında baş verən proseslərə uyğun çevik institusional sistem formalaşacaq;
- əhalinin məşğulluq və layiqli iş imkanları genişlənəcək;
- inklüziv məşğulluq təmin ediləcək;
- təhsil sisteminin əmək bazarı ilə uyğunluğu təmin ediləcək;
- məşğulluq ilə sosial müdafiə arasında əlaqə güclənəcək.

**Mənbə:** https://e-qanun.az/framework/40416

Həyata keçirilən dövlət proqramları respublikanın regionlarının dayanıqlı inkişafını, iqtisadiyyatın rəqabətqabiliyyətliliyini, əhalinin sosial rifahının yaxşılaşdırılmasının və digər mümkün halları təmin edir.

Rregionların sosial-iqtisadi inkişafına dair qəbul olunmuş dövlət proqramları xüsusi yer tutur. 2004-cü ildən indiyədək müvəffəqiyyətlə icra olunan dövlət proqramları bölgələrin, regionların, kəndlərin inkişafına şərait yaratrmış, əmək ehtiyatlarından səmərəli istifadəyə, yeni iş yerlərinin yaradılmasına, əhalinin həyat şəraitinin, komunnal xidmətlərinin yaxşılaşmasına səbəb olmuşdur.

**Sxem 10: Regionların sosial-iqtisadi inkişafının məqsədləri**




**Mənbə:** Abutalibov R. 2010. s 38. Abutalıbov R.R. (2010), İstehsalın ərazi təmərküzləşməsi və regionların sosial-iqtisadi inkişafı, Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, Bakı, səh. 38.;

Ölkə Prezidenti tərəfindən 11.022.2004-cü il tarixində "Azərbaycan Respublikasının regionların 2004-2008-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na dair fərman imzalanmışdır. I Dövlət proqramının məqsədi iqtisadiyyatın müxtəlif sahələrini inkişaf etdirmək, ixracyönümlü məhsulların istehsalını artırmaq, o cümlədən ölkə iqtisadiyyatının dinamik inkişafına nail olmaqdır (https://e-qanun.az/framework/16721).

Bu sənədin davamı olaraq dövlət başçısı tərəfindən 2009-cu ildə "Azərbaycan Respublikası regionların 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət

Proqramı"nın təsdiq edilməsi haqqında fərman imzalanmışdır. II Dövlət proqramının məqsədi qeyri-neft sektorunun inkişafı, əhalinin rifah halının yaxşılaşdırılması, tarazlaşdırılmış regional və davamlı inkişafa nail olmaqdır (https://e-qanun.az/framework/16721).

Sənədin ardı olaraq 27.02.2014-cü il tarixində "Azərbaycan Respublikasının regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" fərmanını imzalamışdır. III Dövlət proqramının məqsədi qeyri-neft sektorunun inkişafı, regionların inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsi, xüsusən də kənd yerlərinin inkişafı ilə bağlı infrastruktur və sosial xidmətlərin həyata keçirilərək yaxşılaşdırılmasından ibarət olacaqdır. Bu proqram uğurlu yerinə yetirilmiş və öncəki illərdə bölgələrdə aparılan islahatlara yeni təkan vermişdir (https://e-qanun.az/framework/27284).

Belə ki, dövlət proqramında qarşıya qoyulan kompleks xarakterli məqsədə çatmaq diqqəti cəlb edir. Bu proqramda iqtisadi, sosial və başqa digər sahələr öz əksini tapır. Sabit, dayanıqlı inkişafı təmin etmək üçün respublikamiqyaslı tədbirlər həyata keçirmək proqnozlaşdırılımışdır.

### 3.2. Əmək ehtiyatlarından istifadənin yaxşılaşdırılması istiqamətləri

Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələrinin işğalı altında olan dövrdə qəbul olunmuş bu Dövlət Proqramı ölkənin aşağıda qeyd olunan regionlarını əhatə edirdi. Belə ki, dövlət proqramlarında adıçəkilən iqtisadi rayonlar aşağıdakılardır:

- Abşeron
- Quba-Xaçmaz
- Dağlıq Şirvan
- Şəki-Zaqatala
- Aran
- Gəncə- Qazax
- Yuxarı Qarabağ
- Kəlbəcər-laçın
- Lənkəran
- Naxçıvan

Azərbaycan Respublikasının Prezidentinin imzaladığı I Dövlət Proqramında (2004-2008) ümumi olaraq 714 tədbir həyata keçirilməsi planlaşdırılmışdır ki, bunalrdan 46-sı makroiqtisadi, 668-i isə iqtisadi rayonlar tədbiridir.

**Diaqram 15: 2004-2008-ci illər ərzində dövlət proqramında həyata keçirilən tədbirlərin sayı**




**Mənbə:** https://e-qanun.az/framework/4797

**Sxem 11: I dövlət proqramından əldə olunan nəticələri**

- Ümumi Daxili Məhsulun (ÜDM) real həcmi 2,6 dəfə yüksələrək 38 milyard manat olmuşdur;
- ÜDM-in adambaşına düşən nominal həcmi 5 dəfə yüksələrək 4440 manat təşkil etmişdir;
- Əhalinin gəlirləri 4 dəfə artmışdır;
- Orta aylıq əmək haqqı 3,5 dəfə artaraq inflyasiya səviyyəsini 1,7 dəfə üstələmiş və 268 manata çatmışdır;
- Olkə əhalisinin təxminən 45 faizi yoxsulluq şəraitində yaşayırdısa, 2008-ci də 13,2 faizə düşmüşdür;
- Qeyri-neft sektoru 1,8 dəfə artmışdır;
- Ölkə sənayesində 2,5 dəfə, kənd təsərrüfatında isə 25,2 faiz artım olmuşdur;
- Ölkədə 766 mindən çox yeni, o cümlədən 547,5 min daimi iş yeri açılmışdır;
- 27,5 mindən çox yeni müəssisə yaradılmışdır ki, bunun da 40 faizə qədəri regionlarda fəaliyyət göstərmişdir;
- Yeni yaradılmış müəssisələrin 88 faizdən çoxunu xüsusi mülkiyyətli müəssisələr təşkil edir və s.

**Mənbə:** https://e-qanun.az/framework/16721

II Dövlət Proqramında (2009-2013) ümumi olaraq 1026 tədbir həyata keçirilməsi planlaşdırılmışdır ki, belə ki, bunlardan 58-i ölkəəhəmiyyətli, 968-i isə iqtisadi rayonlar üzrə tədbiridir. Həmin dövr müddətində həyata keçirilən tədbirlər respublikanın makroiqtisadi göstəricilərinin inkişafına təkan yaratmışdır.

**Diaqram 16: 2009-2013-cü illər ərzində dövlət proqramında keçirilən tədbirlərin sayı**




**Mənbə:** https://e-qanun.az/framework/16721

**Sxem 12: 10 il ərzində (2004-2013) icra olunmuş dövlət proqramlarının nəticələri**

- ÜDM-in real həcmi 3,2 dəfə yüksəlmiş;
- ÜDM-in adambaşına düşən nominal həcmi 2,8 dəfə yüksəlmiş;
- Qeyri-neft sektoru 2,6 dəfə artmışdır;
- Orta illik iqtisadi artım 12,9% təşkil etmişdir;
- Strateji valyuta ehtiyatları 31 dəfə artmışdır;
- Xarici ticarət dövriyyəsi 6,6 dəfə artmışdır;
- İxrac 9,3 dəfə artmışdır;
- İdxal 4,1 dəfə artmışdır.

**Mənbə:** https://e-qanun.az/framework/27284

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı 2014-2018-ci illər üçün Dövlət Proqramında ümumi olaraq 1127 tədbir həyata keçirilməsi planlaşdırılmışdır ki, belə ki, bunlardan 43-ü ölkəəhəmiyyətli, 1084-ü isə iqtisadi rayonlar üzrə tədbiridir.

**Diaqram 17: 2014-2018 illər ərzində dövlət proqramında keçirilən tədbirlərin sayı**




**Mənbə:** https://e-qanun.az/framework/27284

**Sxem 13: 15 il ərzində (2004-2018) icra olunmuş dövlət proqramlarının nəticələri**

- ÜDM-in real həcmi 3,3 dəfə yüksəlmiş;
- Qeyri-neft sektoru 2,8 dəfə artmışdır;
- Sənaye 2,6 dəfə, qeyri-neft sənayesi 2,4 dəfə, kənd təsərrüfatı 1,7 fədə artmışdır;
- Strateji valyuta ehtiyatları 24,3 dəfə artmışdır;
- Orta aylıq əməmk haqqı 7 dəfə artmışdır;
- Orta aylıq pensiyalar 7 dəfə artmışdır;
- Yoxsulluğun səviyyəsi 44,7 faizdən 5,1 faizə düşmüşdür və s.

**Mənbə:** https://e-qanun.az/framework/41320

Regionlarda iqtisadi vəziyyətin yaxşılaşdırmasını, əhalinin məşğulluğunu təmin edilməsi, yoxsulluğun və işsizliyin azaldılması və mövcud əmək ehtiyatlarından səmərəli istifadə edilməsi qeyd olunan bütün dövlət proqramlarının əsas məqsədləridir.

Əmək ehtiyatları iqtisadi rayonlar üzrə natamam paylanmışdır. Bakıda və Abşeron yarmadasında əmək ehtiyatlarının çoxluq təşkil etməsi iqtisadiyyatın inkişafına mənfi təsir göstərərək digər iqtisadi rayonlarında inkişafına mane olur.

**Diaqram 18: Dövlət Proqramlarının icrası nəticəsində açılan iş yerlərinin sayı**




**Mənbə:** https://e-qanun.az/framework/41320

.

**Diaqram 19: Dövlət Proqramlarının icrası nəticəsində açılan müəssisələrin sayı**




**Mənbə:** https://e-qanun.az/framework/41320

Yekun olaraq, 2004-2018-ci il müddətində 2 milyondan artıq iş yeri yaradılmışdır. Bunlardan 1,5 milyondan çoxu daimi iş yerləri olmuşdur. Açılan yeni iş yerlərinin 75 faizini bölgələr təşkil etmişdir. Həmçinin 67 mindən artıq müəssisə açılmışdır ki, 30%-ə qədəri regionların payına düşür.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Rregionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları xüsusi yer tutur. 2004-cü ildən indiyədək müvəffəqiyyətlə icra olunan dövlət proqramları bölgələrin, regionların, kəndlərin inkişafına şərait yaratrmış, əmək ehtiyatlarından səmərəli istifadəyə, yeni iş yerlərinin yaradılmasına, əhalinin həyat şəraitinin, komunnal xidmətlərinin yaxşılaşmasına səbəb olmuşdur. Regionların sosial-iqtisadi inkişafına dair hər üç proqram həyata keçirilərək uğurla başa çatdırılmışdır ki, əsas məqsəd regionların inkişafını bərabərləşdirmək və onların dayanıqlı inkişafını təmin etməlk idi. Həmçinin makroiqtisadi sabitlik təmin edilərək əhalinin rifah halınını yaxşılaşdırılmışdır. Qeyd edilən bu dövlət proqramları daha çox ölkədə sənayeləşmənin artırılması, qeyri-neft sektorunda inkişaf kimi məsələləri əhatə edirdisə, hazırki mərhələdə yeni prioritetlər yaranmışdır. Bu da indiyədək müəyyənləşdirilən strateji siyasət sayəsində əldə edilən uğurların və tarixi zəfərimizin kontekstində özünü göstərir. Hazırda həm dünyada baş verən 4-cü sənaye inqilabı kontekstində, həm yaradılan yeni reallıqlar konteksində ölkə Prezidentinin sərəncamı ilə 2030-cu ilə qədər Azərbaycanın yeni inkişaf perspektivləri müəyyənləşibki, bunlar həm milli çağırışlar, həm də qlobal çağırışlar kontekstində olduqca aktualdır. Belə ki, Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərdə əks olunan Böyük Qayıdış planının 2030-cu ilədək həyata keçirilməsi işğaldan azad olunmuş ərazilərin yenidən dirçəlməsinə, yeni infrastruktur layihələri yaratmaqla əmək ehtiyatlarından səmərəli istifadəsinə, məşğul əhalinin sayını artımına, yeni iş yerləri yaradılmasına və həmin bölgələrində dayanıqlı sosial-iqtisadi inkişafına zəmin yaradacaqdır.

Belə ki, işğaldan azad edilmiş ərazilərin sahib olduğu coğrafi relyef iqtisadiyyatın müxtəlif istiqamətləri üzrə fəaliyyətlərin təşkili baxımından olduqca effektivdir. Bu ərazilərdə dağ-mədən sənayesi, kənd təsərrüfatı, turizm və digər sahələr üzrə olduqca geniş potensial mövcuddur. Gələcəkdə işğaldan azad edilmiş ərazilərdə əmək ehtiyatlarının düzgün planlaşdırılması onlardan səmərəli istifadə baxımından

həmin ərazilərdə, eləcə də oraya yaxın digər ərazilərdə peşə təhsili müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, peşə təhsilində iştiraka marağın artırılması olduqca vacibdir. Həmin ərazilərdə prioritet peşə ixtisasları müəyyənləşdirələrkən regionun gələcək inkişaf meyllərinin nəzərə alınması, sahibkarlıq subyektləri ilə birgə əməkdaşlıqların edilməsi zəruridir.

Cari dövrdə özəl sektorun daha üstünlük təşkil etdiyi kənd təsərrüfatı və turizm sahələri üzrə olmaqla dövlət tərəfindən dəstəkləyici tədbirlər paketinin müəyyənləşdirilməsi, orada çalışaq həm sahibkarlıq subyektləri, həm də muzdla çalışacaq işçilər üzrə vergi və sosial güzəştlərin müəyyənləşdirilməsi olduqca vacib amillərdəndir.

Aparılan dissertasiya işinin yekunu olaraq aşağıdakı nəticələri formalaşdırmaq olar:

- əmək ehtiyatlarından istifadənin səmərəliliyini artırmaq üçün:
- işğaldan azad olunuş ərazilərdə əmək ehtiyatlarının bölüşdürülməsi , onlardan səmərəli istifadə edilməsi;
- iqtisadiyyat və digər müxtəlif sahələrin inkişafını təmin etmək;
- dövlət və qeyri-dövlət sektorunun inkişaf;

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. Abutalıbov R.R. (2010), “İstehsalın ərazi təmərküzləşməsi və regionların sosial-iqtisadi inkişafı”, Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, Bakı, səh. 36.;
2. Azərbaycanın demoqrafik göstəriciləri, (2021), Statistik məcmuə, Bakı.;
3. Azərbaycanın regionları, (2021), Statistik məcmuə, Bakı.;
4. Azərbaycan Respublikasının Konstitusiyası., (2016).;
5. Azərbaycanda təhsil, elm və mədəniyyət, (2021), Statistik məcmuə, Bakı.;
6. Əmək bazarı, (2021), Statistik məcmuə, Bakı.;
7. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, “Statistika xəbərləri” elmi praktik jurnalı, №4, 2021, səh 38-44.;
8. Dayanıqlı İnkişaf Məqsədləri: statistik icmal”, (2021), Statistik məcmuə, Bakı.;
9. Hüseynov T., (2018), Azərbayanın milli iqtisadi inkişafı modeli: nəzəriyyə və praktika”., Bakı.;
10. İşğaldan azad olunmuş ərazilərin post-konflikt dövründə bərpa prosesi., İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi.;
11. İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının rəyi.;
12. Müzəffərli N., İsmayılov E. (2010), Azərbaycanın post-konflikt ərazilərinin bərpası: Konseptual əsaslar., “Qafqaz”, Bakı.;
13. Zeynallı Ə., Zeynallı Z. (2011), Statistika: Sosial-iqtisadi məsələlər., Bakı. səh.114.


## İngilis dilində


1. L.Riddle, G.A.Hrivnak, T.M.Nieslsen., (2010), Transnational diaspora entrepreneurship in emerging markets: Bridging instutional divides.

## Rus dilində

1. Бреев Б.О., (1989), Человек и производство., 266 с.;
2. Вечканов Г.С., (2002), Современная экономическая энциклопедия,, 880 с.;
3. Новиков В.Г., (2011) Трудовой потенциал сельских территорий: актуаализация теории и методологии исследования., журнал, Экономика сельскохозяйственных и перерабатывающих предприятий., №5, 31 с.;
4. Одегов Ю.Г., Руденко Г.Г., Бабынины Л.С., Экономика труда: учеб. В 2-ч томах. Том.1, М.: Альфа-Пресс, 2007, 756 с.;
5. Саруханов Э.Р., (1999) Управление занятостью населения., С-Петербург, 132 с.;
6. Кибанова А.Я., (2010), Управление персоналом организации,, М.: ИНФРА-М, 695 с.;
7. Кокин Ю.П., (2010), Экономика труда: учеб. / Ю.П. Кокин, П.Э. Шлендер. – М.: Магистр, 686 с.
8. Рофе А.И., (2010), Экономика труда,, М.: КНОРУС, 400 с.;

## Türk dilində

1. Yıldız Teknik Üniversitesi, Yüksek lisans tezisi, Verimlilik artırma teknikleri,, İstanbul 2007.

## İnternet resursları

1. http://dgk.nmr.az/media/files/cde88643eea575802e3a9a3dc7136542.pdf
2. https://ru.wikipedia.org/wiki/ Трудовые_ресурсы
3. https://www.stat.gov.az/, 2022
4. https://www.oecd.org/insights/38435942.pdf
5. https://e-qanun.az/framework/40416, 2022
6. https://e-qanun.az/framework/27284, 2022

7. https://un.mfa.gov.az/a, 2022
8. https://e-qanun.az/framework/4797, 2022
9. https://e-qanun.az/framework/46943, 2022
10. https://e-qanun.az/framework/16721, 2022
11. https://www.sosial.gov.az/yashagoreemekpensiyasi
12. https://president.az/az/articles/view/50474
13. https://nk.gov.az/az/document/5457/
14. https://president.az/az/articles/view/52389
15. http://www.anl.az/down/meqale/xalqqazeti/2020/dekabr/729567(meqale).pdf
16. https://e-qanun.az/framework/13340, 2022
17. https://e-qanun.az/framework/22533, 2022
18. https://e-qanun.az/framework/897, 2022
19. https://e-qanun.az/framework/16721, 2022
20. https://e-qanun.az/framework/41320, 2022

# Cədvəllərin siyahısı

**Cədvəl 1:** Əmək ehtiyatlarnın sayı, min nəfərlə....................25
**Cədvəl 2:** 2016-2020-ci illərdə ölkədə kişilər və qadınların pensiya yaşı üzrə bölgüdə....................26
**Cədvəl 3:** 2005-2020-ci illərdə ölkədə əmək ehtiyatlarının sayı, min nəfərlə....................27
**Cədvəl 4:** İqtisadi fəal əhalinin sayı....................28
**Cədvəl 5:** 2005-2020-ci illərdə ölkədə muzdla işləyənlərin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü....................32
**Cədvəl 6:** 2005-2020-ci illərdə Azərbaycanda məşğul əhalinin mülkiyyət növləri üzrə bölgüsü, min nəfərlə....................33
**Cədvəl 7:** İqtisadi rayonlar üzrə məşğul əhalinin sayı, min nəfərlə....................34
**Cədvəl 8:** İqtisadi rayonlar üzrə muzdlu işçilərin sayı, min nəfərlə....................36
**Cədvəl 9:** İqtisadi rayonlar üzrə 2015-2020-ci illərdə yeni açılmış iş yerləri....................37
**Cədvəl 10:** İqtisadi rayonların yeni bölgüsü....................40
**Cədvəl 11:** Qarabağ iqtisadi rayonunda iqtisadi fəal əhalinin sayı, min nəfərlə....................42
**Cədvəl 12:** Şərqi Zəngəzur iqtisadi rayonunda iqtisadi fəal əhalinin sayı, min nəfərlə....................43
**Cədvəl 13:** Qarabağ iqtisadi rayonunda məşğul əhalinin sayı, min nəfərlə....................44
**Cədvəl 14:** Şərqi Zəngəzur iqtisadi rayonunda məşğul əhalinin sayı, min nəfərlə....................45

# Diaqramların siyahısı

**Diaqram 1:** 1990-2020-ci illərdə peşə təhsili müəssisələrini bitirənlərin sayı, nəfərlə....................21
**Diaqram 2:** İqtisadi rayonlar üzrə 2021-ci ildə peşə təhsili alan şəxslərin sayı, nəfərlə....................21
**Diaqram 3:** İşsizlik səviyyəsi, cins üzrə bölgüdə, faizlə....................30
**Diaqram 4:** İşsiz şəxslərin sayı, min nəfərlə....................31
**Diaqram 5:** 2020-ci ildə iqtisadi rayonlar üzrə məşğul əhalinin sayının bütün məşğul əhalinin sayında payı, faizlə....................35
**Diaqram 6:** Qarabağ iqtisadi rayonunda əhalinin sayının dəyişməsi....................41
**Diaqram 7:** Şərqi Zəngəzur rayonu əhalinin sayının dəyişməsi....................41
**Diaqram 8:** Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarında işsiz statusu verilmiş şəxslərin sayı, nəfərlə....................45
**Diaqram 9:** Özünüməşğulluq tədbirləri ilə əhatə olunmuş şəxslərin sayı haqqında məlumat, nəfərlə....................51
**Diaqram 10:** İqtisadiyyatın sahələri üzrə özünüməşğulluq tədbirlərinə cəlb olunanlar haqqında məlumat, nəfərlə....................52
**Diaqram 11:** Sorğuda iştirak etmiş şəxslərin yaş kateqoriyalarına görə bölgüsü, faizlə....................53

**Diaqram 12:** Yeni yaradılacaq iş yerlərində işlə təmin olunmaya dair razılıq üzrə şərtlərin müəyyənləşdirilməsi məqsədilə keçirilmiş sorğunun nəticəsi ........ 53
**Diaqram 13:** İştirakçıların hansı iqtisadi sahələrdə işləməkdə maraqlı olmalarına dair keçirilmiş sorğunun nəticəsi ........ 54
**Diaqram 14:** İştirakçıların muzdla işləməkdə, yaxud sahibkar olaraq fəaliyyət göstərməkdə maraqlı olmalarının müəyyənləşdirilməsi üzrə keçirilmiş sorğunun nəticəsi ........ 55
**Diaqram 15:** 2004-2008-ci illər ərzində dövlət proqramında həyata keçirilən tədbirlərin sayı ... 65
**Diaqram 16:** 2009-2013-cü illər ərzində dövlət proqramı ərzində keçirilən tədbirlərin sayı....... 66
**Diaqram 17:** 2014-2018-ci illər ərzində dövlət proqramı ərzində keçirilən tədbirlərin sayı ....... 68
**Diaqram 18:** Dövlət Proqramlarının icrası nəticəsində açılan iş yerlərinin sayı........ 69
**Diaqram 19:** Dövlət Proqramlarının icrası nəticəsində açılan müəssisələrin sayı ........ 70

## Sxemlərin siyahısı

**Sxem 1:** Milli İqtisadi İnkişaf Modelinin əsas xüsusiyyətləri ........ 12
**Sxem 2:** Əmək ehtiyatları göstəriciləri ........ 15
**Sxem 3:** Əhalinin tərkib hissələri ........ 24
**Sxem 4:** 2030-cu ilədək sosial-iqtisadi inkişafla bağlı reallaşacaq 5 Milli Prioritet........ 39
**Sxem 5:** 2007-2010-cu illəri əhatə edən dövlət proqramından gözlənilən nəticələr........ 58
**Sxem 6:** Məşğulluq Strategiyesı (2011-2015) ilə bağlı dövlət proqramından gözlənilən nəticələr ........ 59
**Sxem 7:** 2006-2015-ci illəri əhatə edən Məşğulluq Strategiyası ilə bağlı dövlət proqramının nəticələri ........ 59
**Sxem 8:** Məşğulluq Strategiyasının məqsədləri (2019-2030) ........ 60
**Sxem 9:** Məşğulluq Strategiyasından əldə olunması təmin ediləcək nəticələr (2019-2030)....... 61
**Sxem 10:** Regionların sosial-iqtisadi inkişafının məqsədləri........ 62
**Sxem 11:** I dövlət proqramından əldə olunan nəticələr ........ 65
**Sxem 12:** 10 il ərzində (2004-2013) icra olunmuş dövlət proqramlarının nəticələri........ 67
**Sxem 13:** 15 il ərzində (2004-2018) icra olunmuş dövlət proqramlarının nəticələri........ 68